

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ballıqaya qətliamından 31 il ötür!



3

# SƏS

№ 154 (6837)

29 avqust 2023-cü il.
Qiyməti 60 qəpik

# Azad, abad Laçın Şəhər Günün mübarək!

2




# Azərbaycan-Türkiyə qardaş dövlət, qardaş ordudur!

5



*PREZİDENT İLHAM ƏLİYEV: "Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz indi bunu əyani şəkildə görürük"*

## Sağlamlıq turizmi: Kəlbəcərin "İstisu"yu



9

## Vətən müharibəsi iştirakçısından Tofiq Yaqubluya: "Bizdən deyilsən?!"



14

## Kor ol, kar ol, lal ol...



11

## Əmək qabiliyyəti olmayan ata-anaya baxmayanları nə gözləyir?



16

## Marko Rubio və Kris Smiti Qubad İbadoğlu ilə hansı maraqlar birləşdirir?



13

# Azad, abad Laçın Şəhər Günün mübarək!

## İLHAM ƏLİYEV: "Bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz"








***Bəli, 26 avqust – azad, abad Laçının Şəhəri Günüdür, qürur günüdür. Belə ki, Laçın şəhəri günü Prezident İlham Əliyevin ötən ay imzaladığı Sərəncama uyğun olaraq hər il 26 avqust tarixində təntənəli şəkildə qeyd edilir. Əlamətdar günün bu tarixdə qeyd olunması Azərbaycan Ordusunun Laçın şəhərində ötən ilin avqustun 26-da yerləşməsi ilə əlaqədardır. Həmin gün Prezident İlham Əliyev azərbaycanlıların Laçın şəhərinə qayıtması ilə bağlı müjdəli xəbəri tviter səhifəsində (indiki "X" sosial şəbəkəsi) elan edib.***

Dövlət başçısının ötən ilin bu günü paylaşdığı mətndə deyilir: "Bu gün, avqustun 26-da biz – Azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün Laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!". Beləliklə, avqustun 26-da Laçın şəhərində Azərbaycanın Dövlət Bayrağı ucaldılıb. Artıq bir ildir ki, Laçın şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı dalğalanır.

Avqustun 26-da Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı söyləyib ki, istər bu gün, istərsə də 44 gün davm edən müharibədə sübut etmişik ki, bizim iradəmizə heç kim təsir edə bilməz: «Bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik».

Bizə qarşı aparılan kampaniyanın, çirkin təbliğatın iradəmizə təsir edə, bizi yolumuzdan döndərə bilməyəcəyini xatırladan dövlətimizin başçısı vurğulayıb: "Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq".

Bəli, bu qələbə, bu uğur güclü ordumuzun və mərd və əyilməz xalqımızın birliyi, gücü nəticəsində əldə olunub. Çünki Azərbaycan xalqı Liderinə inanır və 30 il davam edən torpaq həsrətinə məhz xalqımızın inandığı Qaolib Lider, Ali Baş Komandan Prezident İlham Əliyev «Dəmir Yumruq» siyasəti ilə Güclü Ordumuzun qəhrəman əsgər və zabitlərinin igidliyi ilə düz 44 gündə son qoydu. Çünki Prezident İlham Əliyev nəyi, nə vaxt və necə etməyi özü bilir və yüksək tribunalardan, müsahibələrində, görüşlərində dəfələrlə vurğulayıb ki, nəyi, nə vaxt və necə etməyi özü bili: «Mən nəyi, nə vaxt və necə etməyi özüm bilirəm».

Bəli, dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Prezident indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib, bu sözünə də əməl edəcəkdir. Və 30 ilə yaxın işğal altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu işğaldan azad etdi. Beləliklə, Laçının işğaldan azad edilməsi Azərbaycanın həm hərbi, həm də siyasi-diplomatik müstəvidə qələbəsidir. Prezident İlham Əliyev avqustun 26-da "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı söyləyib ki

### "LAÇIN RAYONUNUN TİMSALINDA BİZ DİRÇƏLƏN AZƏRBAYCAN REALLIQLARINI GÖRÜRÜK"

"Xatırlayıram, 50 yaşım tamam olanda mən laçınlılarla Qarabağda, Qarabağın Ağcabədi rayonunda, Taxtakörpü qəsəbəsində görüşmüşdüm və demişdim ki, torpaqlarımız azad olunandan sonra sizin üçün Laçında daha gözəl şərait yaradacağıq və belə də oldu". Bu sözləri Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı söyləyib.

Əlli yaşını Ağcabədidə, 60 yaşını Şuşada, Cıdır düzündə qeyd etdiyini xatırladan dövlətimizin başçısı bildirib: "Bu gün də Laçın Şəhəri Günündə sizinlə birlikdə bu bayram tədbirlərində iştirak edirəm. Bu böyük xoşbəxtlikdir, mənim üçün, sizin üçün, hər birimiz üçün. Biz xoşbəxt günləri yaşayırıq və əminəm ki, xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaqdır. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük, dirçələn torpaqları görürük".

Bəli, bu gün istər işğaldan azad olunmuş torpaqlarımıhda, istərsə də regionlarımızda görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur. «Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs manеə ola bilməz»,- deyən Azərbaycan Prezidenti İlham Əliyev hər dəfə işğaldan azad olunmuş torpaqlara səfərləri bir daha göstərir ki, işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə manеə zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs manеə ola bilməz. Və bu gün

### "DİRÇƏLƏN LAÇIN, DİRÇƏLƏN QARABAĞ, DİRÇƏLƏN ŞƏRQİ ZƏNGƏZUR BİZİM GÜCÜMÜZÜ GÖSTƏRİR"

Prezident İlham Əliyev Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində çıxışı zamanı deyib ki, bütün dədə-baba yurdlarından qaçqın düşənlər, o cümlədən laçınlılar öz yurdlarına qayıdacaqlar: «Əminəm ki, siz öz dədə-baba torpağınızda rahat, xoşbəxt yaşayacaqsınız. Siz buna layiqsiniz. 30 il siz həm fiziki, həm də mənəvi əzab çəkmisiniz.

Ardı Səh. 3

# Azad, abad Laçın Şəhər Günün mübarək!

*İLHAM ƏLİYEV: "Bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz"*





## Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri hərbi sahədə də uğurla inkişaf edir

### *Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Metin Gürakı qəbul edib.***

Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyi vurğulanıb. Metin Gürakın vəzifəyə təyin olunmasından qısa zaman sonra ölkəmizə səfər etməsinin önəmi qeyd edilib və bu səfərin əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olunub.

Azərbaycan və Türkiyənin hərbi qurumları arasında səmərəli iş birliyinin həyata keçirildiyi qeyd edilib.

Görüşdə Azərbaycanın Vətən müharibəsində Qələbəsinin önəmi və ordumuzun bu qələbənin əldə olunmasında göstərdiyi yüksək peşəkarlığı və qəhrəmanlığı vurğulanıb.

Əvvəli-Səh-2

Bu gün isə artıq dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir və onu göstərir ki, biz istədiyimizə hər zaman nail oluruq».

Dövlətimizin başçısı onu da bildirib kim, müharibədən sonra keçən 3 ilə yaxın müddətdə də bunu sübut etməyə məcburuq. Çünki bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq. Çünki bu torpaqların sahibləri bizik – qurub-yaradan Azərbaycan xalqıdır. Görülən işlər də göz qabağındadır.

### "LAÇIN ŞƏHƏRİNİ CƏMİ 8 AY ƏRZİNDƏ QURUB-YARATMAQ XALQIMIZIN HƏM İSTEDADINI, HƏM İRADƏSİNİ GÖSTƏRİR VƏ EYNİ ZAMANDA, ONU GÖSTƏRİR Kİ, BU TORPAQLARIN SAHİBLƏRİ BİZİK"

Bəli, görülən işlər göz qabağındadır. Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə Laçın rayonunda çoxsaylı layihələrin həyata keçirilməsi nəzərdə tutulub. Bütün bunlar onu göstərir ki, doğma Laçınımız tezliklə öz əvvəlki şöhrətini bərpa edəcək və yenə də cənnət məkana çevriləcəkdir.

Bu gün artıq Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevirilməsinə hədəflənmişdir. Prezident İlham Əliyev Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində çıxışı zamanı deyib: «Köhnədən qalan, işğaldan əvvəlki dövrə aid olan bir neçə yöndəmsiz bina mövcud idi. Bildiyiniz kimi, burada Ermənistan dövləti hərbi cinayət törədərək qanunsuz məskunlaşma aparırdı. Xüsusilə xarici ölkələrdən, Yaxın Şərqdən erməniləri buraya dəvət edib onları bizim, azərbaycanlıların evlərində yerləşdirmişdi. Bu, bir daha demək istəyirəm ki, hərbi cinayətdir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar, Ermənistanın havadarları buna göz yumurdular. Bu, onlar üçün məqbul idi. Çünki Ermənistan dövləti kimi, Ermənistanın xaricdəki havadarları da hesab edirdilər ki, bu torpaqlar əbədi işğal altında qalmalıdır. Bizim iradəmiz, bizim gücümüz, bizim yumruğumuz onların da başına dəydi. Çünki bizim torpağımızda ikinci Ermənistan, ikinci erməni dövlətinin yaradılması təkcə Ermənistan rəhbərliyinin məhsulu deyildi».

Dövlətimizin başçısı «Laçın Şəhəri Günü» bayram tədbirində çıxışı zamanı onu da bildirib ki, İkinci Qarabağ müharibəsi nəticəsində dekabrın 1-də Laçın rayonu işğaldan azad edildi, ancaq Laçın şəhəri və iki kənd – Zabux və Sus kəndləri bizim nəzarətimizdə deyildi: «Ona görə ki, keçmiş Laçın dəhlizi bu şəhərdən, bu kəndlərdən keçirdi. Biz qısa müddət ərzində yeni yol çəkərək həm Laçına, həm də Zabux və Sus kəndlərinə qayıtdıq və bu gün səhər zabuxlularla mənim görüşüm olub. Onlar dünən axşam uzun fasilədən sonra – 31 ildən sonra öz doğma kəndlərinə qayıdıblar və artıq burada yaşayırlar. Laçınlılar isə mayın 28-dən etibarən artıq buradadırlar. Mayın 28-də - Müstəqillik Günündə mən birinci qrup laçınlılara onların evlərinin açarlarını təqdim etdim və beləliklə, Laçının dirçəliş dövrü başlamışdır. O vaxtdan bu günə qədər 1000-ə yaxın Laçın sakini şəhərdə məskunlaşmış və ilin sonuna qədər 900 ailə üçün evlər hazır olacaq. Yəni, bu ilin sonuna qədər bir neçə min həm şəhər sakini, həm kənd sakini Laçında yaşayacaq. Bu, böyük xoşbəxtlikdir».

Bəli, bu gün Prezident İlham Əliyevin siyasəti nəticəsində azad Laçın yeni inkişaf mərhələsinə qədəm qoyur, sakinlərini öz ata-baba yurdlarında xoş və firavan həyat gözləyir. Laçın ərazisində tikilməkdə olan beynəlxalq hava limanı xüsusilə böyük əhəmiyyət daşıyır. Cənab Prezident, həmçinin laçınlılara xoş müjdə də verdi. Belə ki, minlərlə insan bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq. Bu, onu göstərir ki, laçınlıların öz yurdlarında xoşbəxt həyatı o qədər də uzaqda deyil.

Ən əsası isə yenidənqurma və bərpa işlərini Azərbaycan özü təkbaşına, heç bir beynəlxalq təşkilatın və ya dövlətin köməyi olmadan yerinə yetirir. Heç bir maliyyə yardımı almadan, daxili imkanları hesabına, öz gücü ilə hər şeyi edir. Onun sözlərinə görə, həyata keçirilən yenidənqurma və bərpa işlərini Azərbaycan özü təkbaşına yerinə yetirir. Heç bir maliyyə yardımı almadan, daxili imkanları hesabına, öz gücü ilə hər şeyi edir. Bütün bu görülən işlər onu deməyə əsas verir ki, xalqımızın rifahı daha da yaxşılaşacaq, ölkəmizin qüdrəti yüksələrək Qarabağımız daha yenidən dirçələcək!

Bir sözlə, Ali Baş Komandan, Prezident İlham Əliyevin «Laçın Şəhər Günü»ndə Laçına səfəri və səfər zamanı verdiyi mesajlar bir daha sübut edir ki, işğalçı ölkə ölkə nə qədər təxribat aparsa da, Qalib Liderimiz Prezident İlham Əliyev siyasətinin qətiyyətli və cəsarətli siyasəti nəticəsində Ermənistan reallıqlarla hesablaşmalıdır və istəsə də, istəməsə də yeni reallıqları qəbul etməlidir. Heç vaxt unutmamalıdır ki, «Dəmir yumruq» yerindədir. Və nə qədər gec deyil, Ermənistan və onun havadarları regionun yeganə Qalib liderinin sözünə qulaq versin!

***R. Hüseynova***

# Zatulindən ərikli mövqe



*Azərbaycana qarşı qərəz, burada yaşayan yerli xalqı - Azərbaycan türkünü görməzdən gəlmək, tarixi saxtalaşdırmaq kimi cəhdlər artıq fobiya halını alıb, xəstəlik simptomuna çevrilib, dərinə işləyib. Əlləri hər yerdən üzüləndə, sübut üçün faktlar tapılmayanda olmayan tarixə istinad da var, bu yanaşmalarda. Bilirik, fransız da, rus da, ingilis də, yunan da ermənilər kimi müsəlman deyillər. Bir-birini dəstəkləmək kimi yanaşmalarından da xəbərimiz var. Amma bütün bunları yalan üzərində quranlar qarşı tərəfdə əks-reaksiya effekti yarada biləcəyini də bilməmiş deyillər, bunu hesaba almalıdırlar. Ermənilərin havadarlarının dəstəyi ilə iki əsrə yaxın hazırlaşdığı və 30 il bundan əvvəl başlatdığı etnik təmizləmənin kökündə də Azərbaycan torpaqlarını yalan tarixə söykənib ələ keçirməkdir.*

Bu, bir erməni projesi deyil, bu, dünya güclərinin, səlibçilərin, xristianlığın bütün dünyada hakim olmasına çalışanların əməlidir. Yoxsa, türk torpağında yabanı çayır kimi bitən ermənilər nədən bu qədər cəsarətləndilər, Türkiyəyə, Azərbaycana, Gürcüstana torpaq iddiasına qalxdılar. Sizcə, bunu Ermənistan adlı qondarma dövlət təkbaşına edə bilərdimi? Əlbəttə yox.

Diqqət edin, dünya nizamını pozan, başqa ölkənin torpaqlarını ələ keçirən Ermənistana gözün üstə qaşın var deyən olmadı bu 30 ildə. Azərbaycan çoxsaylı tədbirlərdə müxtəlif formatlı yüzlərlə tədbirlərə qatıldı, büynəlxalq tədbirlərin iştirakçısı oldu və bütün hallarda Ermənistanın Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazilərini işğal etdiyini dedi, 1 milyondan artıq vətəndaşımızın öz doğma yurdlarından didərgin salındığını onların kor olası diqqətinə çatdırdı, əlindən tutub çadır şəhərciklərinə gətirdi və zillət içində yaşayan insanlarımızı onlara göstərdi. Amma heç birinin tükü də tərpənmədi, sanki belə də olmalıymış. Ermənistana ədaləti başa salmaq əvəzinə Azərbaycanda guya "insan haqları"nın pozulduğunu, "mətbuat və söz azadlığı"nın isə olmadığını bəhanə gətirib Qarabağ münaqişəsini unutdurmağa çalışdılar. Öz gözlərində tiri görməyənlər bizim gözümüzdə tük axtarmağa çalışdılar. Səbrimizin sonsuz olmadığını, Qarabağın heç vaxt unudulmayacağını BMT qarışıq bütün təşkilat və dövlətlərin beyninə yeridə bildik. Bunu Ordumuz Müzəffər Ali Baş Komandanın cəsarəti və iradəsi ilə həyata keçirə bildi. Azərbaycan ermənipərəst dünya ilə onun öz dilində danışdı və qələbəsini yedirtdi.

Bu gün haqqımızı tanımaq istəməyənlər də var, amma yenə ikiüzlülük edirlər. Üzdə bir, arxada isə başqa söz




danışırlar. Azərbaycana gələndə bir sifət, Ermənistanda isə yırtılmış sifətlərinin nümayiş etdirirlər. Beynəlxalq qanunlarda ağ vərəğin üzərində qara rəngdə İŞĞALÇI-nın tərifi verilib: Bir ölkənin BMT-yə üzv olan dövlətlər tərəfindən tanınmış ərazilərinə digər üzv dövlət və yaxud dövlətlər tərəfindən onun iradəsinin ziddinə olaraq hərbi müdaxilə işğal adlanır. BMT də o təşkilatlardandır ki, işğal faktı öz təsdiqini tapdığı anda toplanır və ciddi tədbirlər görülür. Bu tədbirlər sırasına müxtəlif təzyiq və təcrid üsulları aiddir. Amma Ermənistan 30 il Azərbaycan torpaqlarının 20 faizini işğal etdi, vətəndaşlarını didərgin saldı, yurdundan qovdu, 9 şəhər və 300-dən artıq kəndi tar-mar etdi, daşı daş üstə qoymadı, BMT və dünya gücləri susdu.

İndi zaman o zaman deyil, Azərbaycan torpaqlarını işğaldan azad edib, suveren hüquqlarından yararlanmaqdadır, hələ də başqa ölkənin silahlı qüvvələrinin törtöküntülərini buradan uzaqlaşdırmaq üçün hələlik sivil metodlara müraciət edir. İşğal faktı və işğalçı ifşa olunduğu bir vaxtda yenə də dünyanın bəzi təşkilat və ölkələri köhnə hava çalmaqdadırlar. Müxtəlif yollarla Azərbaycanı ermənilərə güzəştə vadar etməyə çalışırlar. Qarabağda separatçıları "sivil xalq" adlandıran həmin ikiüzlülər Azərbaycanın təklif etdiyi bütün humanist yanaşmaları rədd edərək qanunsuz qurumun – "dqr"in yaşamasına hansısa formada nail olmaq istəyirlər. Yəni xristian təəssübkeşliyi burada da ermənilərin dadına çatır. Hadisələrin bir-birinə bənzərliyi var, amma zaman başqadır.

Bəzi siyasətçilər də var ki, Ermənistan-Azərbaycan münaqişə qazanına daim yağ tökməyə hazırdırlar. Gah siyasətdən, gah coğrafiyadan, gah riyaziyyatdan danışır, yorulanda isə hərdən tarixə də ekskurs edirlər. Bütün hallarda da uğursuzluq. Rusiya Dövlət Dumasının deputatı, ermənidən çox erməni olmağa iddialı Zatulin də bu sayaq "siyasətçi"lərdəndir. Bu günlərdə televiziyaların birinə Qarabağda baş verən hadisələrdən, "humanitar fəlakətdən" və ən əsası Makedoniyalı İsgəndərdən danışıb. Soruşarsınız ki, Zatulin hara, Makedoniyalı İsgəndər hara? Darıxmayın, onu da söyləyəcəyəm. Sən demə, Makedoniyalı İsgəndən zamanında "Artsax"a səfər edib və burada nə yesə yaxşıdır? Ərik.

### Xəritədən də görünür ki, Makedoniyalı İsgəndər ümumiyyətlə Qafqazda olmayıb

Bir az da dəqiqləşmə aparaq, Zatulinin dili ilə. Zatulin açıqlamasına belə başlayır ki, bəs, Azərbaycanın Qarabağı öz ərazisi kimi təqdim etməsi və suverenliyini Qarabağda da təmin etmək üçün artıq masada siyasət yürütməsi, ümumiyyətlə, bütün baş verən son hadisələr Zatulini "gecələr yatmağa qoymur". Bunu özü deyib, bildirib ki, ssenari belə deyildi. Azərbaycan bu torpaqlardan birdəfəlik imtina etməli idi. Amma vəziyyət ermənilərin əlehinə pisləşməkdədir. "Aclıq", "humanitar fəlakət" baş alıb gedir. Zatulin ermənilərin Qarabağa daha çox iddalı olduğunu da "əsaslandırıb". Deyib ki, "ermənilər buralarda bizim eradan düz 6 min il əvvəldən yaşayıblar". Zatulin insafsızlıqdanmı, faktların kasadlığındanmı, yoxsa hansısa sirr-xudadan bu faktı necə sübut edəcəyindən danışmayıb, mənbəni göztərməyib. Görəsən niyə, yoxsa ermənilərə daha inanmır? Bəlkə Ermənistan rəhbərliyi onu "Hayastan"a buraxmadığı üçün bu "sirri" gizlədir. Amma rusiyalı "dumşik" ucundan-qulağından bir iki söz deyib. Bildirib ki, "bizim eramızdan əvvəl, Makedoniyalı İsgəndər Şərqə yürüşləri zamanı Ermənistana gəlib. Və Və burada ərik yeyib. Ermənilərin ərik yetişdirdiklərini nəzərə alaraq deyə bilərik ki, İsgəndər Ermənistanda olub və buralarda ermənilər yaşayıb. Azərbaycanlılar isə Altay torpaqlarından gəliblər".

Zatulinin üzürü günahından böyük olub. Bu adamın erməni sevgisi o qədər başını xarab edib ki, öz ölkəsinin – Rusiyanın maraqlarını ermənilərin ayaqları altına atıb. Düzdür, Altaylar da Türk torpaqlarıdır. Amma tarixi geriyə qaytarıb hər kəsi öz yerinə qaytarsaq Rusiya və rusların harada olacağı böyük sual doğurur. Şimal qonşumuz razı qalacaqmı, Zatulinin düsturundan. Təxmin etmək olar, ruslar əvvəla qaranlıq keçmişlərini, xalqın etnogenezini mübahizə mövzusuna çevirdiyinə görə Zatulini bağışlamayacaqlar. Haqlıdırlar, axı Rusiya ideoloqları rusların mənşəyini o qədər mifikləşdiriblər ki, kələfin ucunu özləri də tapa bilmirlər. Əlqərəz, bu ərazilərdə min-iki min il əvvəlin gəzintisinə çıxsaq yalnız türklərlə rastlaşa bilərik.

### Reallığa qayıdaq

Qarabağda vəziyyət getdikcə dəyişir, separatçılar bu torpaqlardan rədd olacaqlarına qəti əmin olduqlarından bir az da azğınlaşıblar. Dünya dövlətlərinə, beynəlxalq təşkilatlara separatçılığın haqlı bir yöntəm olduğunu sübut etməyə çalışırlar. Onlarla hesablaşmalarını istəyirlər. Demirlər ki, biz qanunsuz qurum yaratmışıq və sizing də borcunuz dur ki, bizi tanıyasınız. Əksinə, məsələni burada yaşayan insanların taleyini hərraca çıxarmaqla həll etməyi düşünürlər. Guya ki, Qarabağın erməni əhalisi onlara bu "fəlakəti" yaşadan bir ölkənin tərkibində yaşamaq istəmirlər, ona görə də müstəqillikləri alternative yoxdur. Qondarma qurumun "dövlət naziri" Qurgen Nersisyan adlı separatçı Azərbaycan nümayəndələri ilə görüş təşkil etmək xahişi ilə Rusiyaya müraciət edib: "Qarabağda vəziyyət, təhlükəsizlik problemləri, humanitar böhran ətrafında məsələləri müzakirə etmək üçün Azərbaycanla görüş keçirmək tələbi-təklifi ilə Rusiyaya üz tutmaq lazımdır. Azərbaycan ərazisində vətəndaşlarımızın fiziki təhlükəsizliyinə heç kim təminat verə bilmədiyi üçün bu görüş Rusiya sülhməramlı qüvvələrinin yerləşdiyi yerdə və ya üçüncü bir şəxsin iştirakı ilə hər hansı digər təhlükəsiz yerdə keçirilə bilər". O, bildirib ki, Rusiya belə bir görüşü təşkil etməyə qadirdir, onun nəticələri ictimaiyyətə təqdim olunacaq.

### Makron , "blokada" və müharibə

Fransa prezidenti Emmanuel Makron isə "Le Point" qəzetinə müsahibəsində Azərbaycanın təşkil etdiyi "Qarabağın blokadası"nı pisləyib. O, bu məsələdə diplomatiya üçün ayrılan vaxtın başa çatdığını bildirib: "Mövqeyimiz aydındır: biz təəssüflənirik və "blokada"nı pisləyirik, artıq diplomatiyanın vaxtı deyil. Biz həmişə xalqların suverenliyinin tərəfdarı olduğumuzu bəyan etmişik". Fransa lideri bunu deməzdən əvvəl ətrafına baxsın, öz ölkəsində baş verənləri gözünün qabağına gətirsin və bundan sonar Cənubi Qafqaza tərəf boylansın.

Makron qeyd edib ki, Qarabağ məsələsi çox mürəkkəbdir və o, indi bu problemin ən kəskin guşələrinə toxuna bilməz. O, Fransanın Azərbaycanın 2020-ci ilin payızında başlatdığı müharibəni kəskin şəkildə pislədiyini və Qarabağa humanitar yardım təşkil etdiyini xatırladıb. "Biz bu gün mümkün olan hər şeyi edirik ki, Ermənistan və Azərbaycan davamlı sülhü bərqərar edəcək, xalqları və mədəniyyətləri qoruyacaq saziş imzalasınlar. Bu sülh müqaviləsi zəruretdir, lakin o, beynəlxalq hüquqa uyğun olmalıdır", - Makron deyib. O, Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okamponun "Azərbaycanın təhlükəsizlik qüvvələri tərəfindən Laçın yolunun blokadaya alınması Qarabağ ermənilərinə qarşı soyqırımdır" bəyanatına da münasibət bildirib. Makron burada nədənsə "soyqırım" ifadəsini işlətməyi tələsik addım kimi qiymətləndirib. Başqa cür də təsəvvür etmək olmaz, Makron nə qədər ağılsız olmalıdır ki, hər addımda xatırladılan, irad tutulan - ələzairlilərə qarşı törədilən soyqırımı, Parisin Afrika dövlətlərində törətdiyi qanlı cinayətləri, korsikalılara qarşı repressiv siyasəti dansın. Fransa prezidenti onu da bilməmiş deyil ki, ölkəsini müstəmləkəçilikdə, sömürgəçilikdə ittiham edən ölkələrin sayı da az deyil. Necə ola bilər ki, ədalətsiz bir ölkə ədalətdən danışsın?

**V.VƏLİYEV**

## Rusiyalı ekspert: "Azərbaycanın parlaq müstəqilliyi Qərbi tam qane etmir"



Bütün Avrasiya məkanı fonunda Azərbaycanın parlaq müstəqilliyi Qərbi tam qane etmir. Bununla belə görünür ki, aparıcı Qərb ölkələri Bakı ilə münasibətlərə xələl gətirməməyə çalışır. Bu barədə AZƏRTAC-a xarici siyasət, müdafiə və təhlükəsizlik sahəsində rusiyalı ekspert Qriqori Trofimçuk bir sıra Qərb ölkələri xarici işlər nazirliklərinin ötən həftə səsləndirdiyi anti-Azərbaycan bəyanatlar dalğasını şərh edərkən deyib.

"Bu gözlənilən idi. Çünki bu, Bakıya təsir etmək üçün yeganə praktiki vasitədir. Şübhəsiz ki, Qərb Bakının daha "üzüyola" olmasını istəyərdi. Bütün Avrasiya məkanı fonunda Azərbaycanın parlaq müstəqilliyi Qərbi tam qane etmir. Bununla belə, görünür ki, aparıcı Qərb ölkələri qeyd olunan kampaniyaya daha kiçik ifaçıları daxil edərək, Bakı ilə münasibətlərə xələl gətirməməyə çalışırlar. Bütövlükdə bunlar Bakının möhkəmliyini yoxlamaq üçün sınaqdır", - deyə Agentliyin həmsöhbəti qeyd edib.

Onun sözlərinə görə, Qərbdə başa düşürlər ki, "Ukrayna hadisələrinin aydınlaşması Cənubi Qafqazda da çox şeyi dəyişəcəkdir", buna görə də "Bakının yeni startını təxmin etməyə, qabaqcadan öyrənməyə çalışırlar". "Hələ ki, onlar Türkiyə-Azərbaycan tandeminə qarşı heç nə edə bilmirlər: bu müasir zamanın ən güclü hərbi-siyasi ittifaqlarından biridir. Bu müttəfiqlərin opponentlərində heç nə alınmır. Misal üçün, İran-Ermənistan, Hindistan-Ermənistan və hətta Fransa-Ermənistan kimi xaotik əməkdaşlıqlar Ankara-Bakı vəhdətinə yaxın da dura bilmirlər", - deyə beynəlxalq ekspert vurğulayıb.

Qərbin yeni anti-Azərbaycan isteriyasının məqsədlərinə gəldikdə, Qriqori Trofimçuk onların arasında Bakının aktivliyinin azalması və Qarabağ ətrafındakı vəziyyəti növbəti ləng hərəkət edən zolağa salmaqla onu müəyyən proqnozlaşdırıla bilən çərçivələrə daxil edilməsini göstərib. "Laçın yolu ətrafındakı hadisələr də daxil olmaqla, Bakının artıq çoxdan Qarabağda şərtlərini diktə etməsi Qərbin xoşuna gəlmir. Vəziyyətin bu nöqtəyə gəlib çatması gözlənilməz idi. Bakının Moskva ilə ehtiyatlı davranması da onların xoşuna gəlmir. Nəticədə Qərbin istəyi ilə bütün Cənubi Qafqazın yenidən formatlaşdırılmasına çıxış irəli sürülür", - deyə o hesab edir.

# Azərbaycan-Türkiyə qardaş dövlət, qardaş ordudur!



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbulu zamanı Yaşar Gülərin Türkiyənin milli müdafiə naziri vəzifəsinə təyin edilməsini Türkiyə Prezidenti tərəfindən göstərilən böyük etimad kimi dəyərləndirib və ona vəzifəsinin icrasında uğurlar arzulayıb.**

*PREZİDENT İLHAM ƏLİYEV: "Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz indi bunu əyani şəkildə görürük"*



Prezident İlham Əliyev Yaşar Gülərin Azərbaycan və Türkiyə Silahlı qüvvələrinin birgə işbirliyi ilə bağlı böyük səylər göstərdiyini və töhfələr verdiyini vurğulayıb, bu işbirliyinin çox yaxşı səviyyədə olduğunu qeyd edib.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanın Prezident seçiləndən sonra Azərbaycana həyata keçirdiyi ilk dövlət səfərinə toxunaraq, bu səfər zamanı Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışının önəmini vurğulayıb.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Yaşar Gülər özünün və rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərdən böyük məmnunluq və şərəf hissi duyduqlarını bildirərək, ilk növbədə Türkiyə Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırıb.

Bəli, bu dünyada analoqu olmayan və sərhəd tanımayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir. Bu gün hər iki dövlət yaxşı gündə də, pis gündə də bir-birinin yanındadır, hər iki dövlət eyni yolu yaşayır. Son illər baş verən hadisələr bir daha təsdiqlədi ki, iki qardaş ölkə arasındakı qırılmaz əlaqələr daha möhkəm və sarsılmazdır. Bu gün hər iki xalqın nümayəndələri müdrik siyasi xadim Heydər Əliyevin bu sözlərinə sadiqlik nümayiş etdirdilər. Bütün dünyaya bir daha məlum oldu ki, bu tarixi ifadə sadəcə olaraq sözdən ibarət deyildir. Bu tarixi kəlam iki dost və qardaş ölkənin yolunu daha da işıqlandırıb, bütün sahələr üzrə, o cümlədən ordu sahəsində inkişafı yeni mərhələyə çatdırıb.

Azərbaycan Prezidenti İlham Əliyev cənabları ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 3 ay öncə mətbuata bəyanatlarında hərbi və müdafiə sənayesi sahəsində Azərbaycan-Türkiyə münasibətlərinin uğurla davam etdiyini, Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsinin təsadüfi olmadığını vurğulayaraq bildirib ki, 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi: «Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz indi bunu əyani şəkildə görürük".

Dövlət başçısı onu da vurğulayıb ki, bu model hələ uzun illər ərzində Azərbaycan Ordusunun Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək.

### 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ TÜRKİYƏNİN ORDU MODELİ ÖZÜNÜN UĞURUNU BİR DAHA SÜBUT ETDİ

Bəli, 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Bu gün Aəzərbaycan qardahər iki öyardaş ölkələr hərbi sahədə fəal əməkdaşlıq edir. Bu gün Azərbaycanın çox güclü ordusu var və hər bir vətəndaş ordumuzla qürur duyur. 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi də ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, səmərəli nəticələr əldə olunur. Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər ərzində bu sahədə həyata keçirilən davamlı islahatlar və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda çox sürətlə və yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Bunun qanunauyğun nəticəsi kimi, Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır.

**Ardı Səh. 6**



# Azərbaycan-Türkiyə qardaş dövlət, qardaş ordudur!

Əvvəli-Səh-5

Və bu gün Azərbaycan və Türkiyə dövlətlərinin ordu rəhbərliyi arasında keçirilən yüksək səviyyəli görüşlər, iki ordunun hərbi qulluqçularının iştirakı ilə təşkil olunan təlimlər nəticəsində Azərbaycan Ordusunun güclənməsi və müasir tələblər çərçivəsində qurulmasına yönəlik mühüm işlərə imza atılır. Bir sözlə, önəmli olan odur ki, tarixi köklərə söykənən və fundamenti qarşılıqlı etimad prinsipi üzərində qurulan əməkdaşlıq və tərəfdaşlıq bu gün ən yüksək dövrünü yaşayır.

Yüksək beynəlxalq tribunalardan öz sözünü deyən, milli mənafeyini qoruyan, böyük iqtisadi potensiala malik ölkəmiz İkinci Qarabağ müharibəsində 30 illik işğala son qoyaraq əldə etdiyi Qələbə ilə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi. Qürurverici haldır ki, bu gün Azərbaycan ilə Türkiyə arasında münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlib. Ölkələrimiz milli maraqlara uyğun beynəlxalq əhəmiyyətli böyükhəcmli layihələrin reallaşmasına birgə səy göstərir. Hərbi sahədə də müttəfiq olan iki qardaş ölkə 2010-cu ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" Müqaviləyə əsasən müstəqilliyin qorunması, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığı istiqamətində bir-biri ilə sıx əməkdaşlıq edirlər. Müqavilənin ikinci maddəsində ölkələrdən hər hansı biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldığı halda, öz imkanları daxilində bütün zəruri tədbirlərin görülməsi məqsədilə bir-birinə qarşılıqlı yardım göstərəcəkləri nəzərdə tutulur. Müqavilədə həmçinin, hər iki dövlətin səylərini birləşdirməsi, müdafiə və hərbi-texniki sahədə siyasətlərinin həyata keçirilməsində və silahlı qüvvələri arasındakı əlaqələrin daha da gücləndirilməsində sıx əməkdaşlıq perspektivləri öz əksini tapıb. Bu baxımdan, Cənubi Qafqaz regionunda söz sahibi olan Azərbaycan qardaş Türkiyə ilə birgə beynəlxalq sülhə, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verir, sülhü təhdid edən çağırışlara qarşı səylərini birləşdirirlər. Bütün bunların fonunda bir-birinə qarşılıqlı yardım göstərmək, Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində mühüm işlər həyata keçirilir. Müntəzəm olaraq keçirilən birgə təlimlər isə hər iki ölkənin silahlı qüvvələri arasında təcrübə mübadiləsi, hərbi biliklərin mənimsənilməsi yönündə mühüm əhəmiyyət kəsb edir. Və bu təlimlərin böyük əksəriyyəti hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə uğurlu əməkdaşlıq əlaqələri qurulan Türkiyə dövləti ilə birgə yerinə yetirilir.



Official publication

Azərbaycan Prezidenti İlham Əliyev cənablarının sözlərinə görə,

### "HƏRBİ TƏLİMLƏR TÜRKİYƏ-AZƏRBAYCAN BİRLİYİNİN, QARDAŞLIĞININ NÖVBƏTİ TƏZAHÜRÜDÜR"

Göründüyü kimi, iki ölkə arasındakı hərbi əlaqələrin inkişafına təkan verən ən önəmli amillərdən biri də birgə hərbi təlimlərin keçirilməsidir. Bir sözlə, iki ölkənin münasibətləri unikal bir nümunəyə çevrilib. 44 günlük Vətən müharibəsində Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz olduğunu və möhkəm təməllərə əsaslandığını bir daha bütün dünyaya nümayiş etdirdi. İki ölkə, sözün əsl mənasında, daha bir dostluq və qardaşlıq dastanı yazdı, tarixi salnamə yaratdı. Postmüharibə dövrünün reallıqları da bu gerçəkliyi bir daha təsdiqləyir. "İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi" deyə Prezident İlham Əliyev çıxışında bildirib.

Məhz iki qardaş dövlətin münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsi

### "ŞUŞA BƏYANNAMƏSİNİN İMZALANMASI İLƏ TÜRKİYƏ VƏ AZƏRBAYCAN RƏSMƏN MÜTTƏFİQ OLDULAR"

Bəli, müasir Azərbaycanın tarixində müstəsna yer tutan hadisələrdən biri də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsinin imzalanmasıdır. Bu hadisə iki qardaş dövlətin münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsi şanlı tariximizin ən qürurverici səhifələrindən biridir.

«Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular», - deyən Azərbaycan Prezidenti tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi olduğunu qeyd edib: "Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir".

Bəli, Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib. Bu Bəyannamənin müddəaları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin bir çox aspektini əhatə etsə də, Hərbi Doktrinada nəzərdə tutulan xarici hərbi və siyasi təhdidlərin neytrallaşdırılmasında və ya onlara qarşı balans yaradılmasında xüsusi əhəmiyyət kəsb edir. Hərbi və müdafiə sənayesi sahəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri uğurla davam edir. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsi isə təsadüfi deyildi. 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Və bu gün müdafiə sənayesində önəmli rolu olan şəxslərdən biri də Səlcuq Bayraktardır ki, məhz onun təşəbbüsü ilə bu gün türk hərbi sənayesi dünyanın aparıcı hərbi qüvvəsi hesab olunur.

Bir sözlə, hərbi və müdafiə sənayesi sahəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri uğurla davam edir. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçməsi təsadüfi deyildi. 44 günlük Vətən müharibəsində Türkiyənin ordu modeli özünün uğurunu bir daha sübut etdi. Bu model hələ uzun illər ərzində Azərbaycan Ordusunun professional inkişafında böyük rol oynayacaq. Prezident İlham Əliyevin dediyi kimi, Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü isə Türkiyənin gücüdür. Bizim qardaşlığımız əbədi və sarsılmazdır! Bütün dünya bilsin ki, Azərbaycan-Türkiyə əməkdaşlığı və qardaşlığı möhkəmdir, sarsılmazdır. Çünki Azərbaycan və Türkiyə təkcə iki dövlət, bir millət deyil - qardaş dövlət, qardaş ordudur!

**RƏFİQƏ KAMALQIZI**

# Ballıqaya qətliamından 31 il ötür!



**_Erməni terrorçu-quldur birləşmələri tərəfindən törədilən, tarixə qanlı və amansız cinayət kimi düşən Ballıqaya qətliamının ildönümüdür. SİA xatırladır ki, Ermənistan silahlı qüvvələri tərəfindən dinc azərbaycanlılara qarşı törədilmiş qətliamdan 31 il ötür. Tarixdə Ballıqaya qətliamı kimi yad edilən faciə 1992-ci ilin avqustun 28-də, səhər saat 5 radələrində Goranboy rayonunun Ballıqaya kəndində baş verib._**

Qətliam nəticəsində aralarında 6 uşaq, o cümlədən 6 aylıq körpə və 93 yaşlı ahıl qadın da olmaqla, 24 nəfər azərbaycanlı mülki şəxs amansızlıqla qətlə yetirilib. Əksəriyyəti uşaqlar, qadınlar və qocalar olan qətlə yetirilmiş şəxslərin bəzilərinin meyitləri yandırılıb. Qətliam nəticəsində 3 azyaşlı uşaq hər iki valideynini itirib.

Ballıqaya qətliamı Ermənistan silahlı qüvvələrinin bundan əvvəl Xocavəndin Qaradağlı kəndində, Xocalı şəhərində, Kəlbəcərin Ağdaban kəndində Qarabağın azərbaycanlı əhalisini kompakt şəkildə məhv etmək məqsədi ilə törədilən silsilə kütləvi qırğın aktlarından biridir.

1992-ci ilin yay aylarında Laçın işğal olunandan sonra öz evlərindən didərgin düşən yerli əhali Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmağa məcbur olub. Yaxın qohumluq münasibətləri olan 6 ailə isə heyvandarlıq üçün əlverişli olan Ballıqaya ərazisində məskunlaşıblar. Avqust ayında Ballıqaya kəndində çadırda məskunlaşan Laçın rayon sakinləri də buraya sırf heyvandarlıq məşğuliyyətini davam etdirmək məqsədiylə gəliblər.

Lakin onlar avqust ayının 28-də xüsusi amansızlıqda qətlə yetiriliblər. Belə ki, səhər saat 5 radələrində Ermənistan ordusunun 10-12 nəfərdən ibarət diversiya dəstəsi əraziyə daxil olub və əliyalın günahsız insanlara silahla hücum çəkiblər. Nəticədə özlərini müdafiə etməyə üzərilərində heç bir silah belə olmayan 24 mülki insan amansızlıqla öldürülüb və 9 nəfər isə ağır yaralayıb. Qətlə yetirilən və ağır bədən xəsarəti alan şəxslərin hamısı heyvandarlıqla məşğul olan mülki şəxslər, çobanlar və onların ailə üzvləri olub.

İstər Ballıqaya, istər Qaradağlı, istərsə də Xocalı və Ağdaban faciələrinin törədilməsi bir daha onu göstərir ki, ermənilər dinc azərbaycanlılara qarşı tarix boyu düşmən mövqedə dayanıblar. Onların azərbaycanlılara qarşı törətdiyi bu qətliamlar Azərbaycan tarixinin qan yaddaşına həkk olunub.

Ermənilərin azərbaycanlılara qarşı törətdiyi bütün qətliamların qisası 2020-ci ilin sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları zamanı bir-bir alınıb. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu düşməni döyüş meydanında məhv edə-edə qələbə qazanmaqla yanaşı bu qisasın alınmasına nail olunub. Baxmayaraq, Ermənistan silahlı qüvvələri hətta Vətən müharibəsi günlərində də dinc əhaliyə qarşı hərbi cinayətini davam etdirib. Azərbaycan əsgərinin qarşısında tab gətirməyən düşmən döyüş meydanından qaçaraq o zamankı cəbhəyanı ərazilərdə yerləşən və eləcə də cəbhəyanı ərazilərə yaxın olan şəhər və rayonları ballistik raketlərlə bombalayıb. Gəncə və Bərdə şəhərlərinin düşmən tərəfindən ballistik raketlərlə bombalanması nəticəsində neçə-neçə günahsız insanın, azyaşlıların, qadınların həyatına son qoyulub. Eləcə də Mingəçevir, Yevlax, Naftalan, Goranboy, Tərtər, Ağdam, Ağcabədi və digər şəhər və rayonlarda mülki əhali və infrastrukturu mərmi və raket atəşinə məruz qoyması nəticəsində uşaq və qadınlar da daxil olmaqla çoxlu sayda insan qətlə yetirilib.

Bütün bunlar dinc azərbaycanlılarla düşmənçilik edən ermənilərin – erməni silahlı birləşmələrinin ideologiyasının əsas qayəsidir.

Amma onların bu ideologiyası da, mifologiya üzərində quraraq özlərini inandırmağa çalışdıqları yenilməz orduları da məhv edildi. Məhz qətiyyətli Ali Baş Komandanın ətrafında sıx birləşən Azərbaycan xalqının birliyi və Azərbaycan ordusunun şücaəti sayəsində. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində uzun illər işğal altında saxlanılan torpaqlarımız düşmən tapdağından azad edildi. Bununla da, tarixi ədalət bərpa olundu və qələbə qazanıldı. Tarixən azərbaycanlılara qarşı kütləvi qırğın, qətliam və soyqırımı törədən erməni silahlıları və onların törtöküntüləri isə döyüş meydanında yerindəcə məhv edildi. Əldə olunmuş Zəfərə, qazanılmış qələbəyə baxmayaraq, Azərbaycan xalqı ermənilərin törətdiyi kütləvi qətliamları heç bir zaman unutmayıb.









Prezident, Ali Baş Komandan İlham Əliyev də dəfələrlə çıxışlarında Azərbaycan xalqına qarşı yönəlmiş bu qırğınların heç birinin unudulmayacağını və buna görə Ermənistanın hüquqi müstəvidə cavab verməyə məhkum ediləcəyini bildirib.

# Oyun başa çatdı: separatçı rejim yalvarır

*Yaxud bu da baş tutmasa, artıq nəyin-necə və nə vaxt olacağı an məsələsinə çevrilir...*



***Xankəndidə qalan separatçı tör-töküntülərinin avqustun 25-də rəsmi Bakı ilə görüşün təşkil edilməsi üçün Rusiyaya ünvanladığı müraciətləri məlum olduğu kimi cavabsız qalıb. Moskva bu barədə susur və bunun da səbəbi var...***

Hətta bunun ardınca, Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasının ərazisi də göstərilir. Məsələ həm də ondadır ki, separatçıların qondarma "dövlət naziri" Qurgen Nersisyan görüşün "təhlükəsiz yerdə" keçirilməsini istədiklərini açıqlamışdı. Separatçılar "təhlükəsiz yer" dedikdə Bakının şərt olaraq irəli sürdüyü əraziləri – Bərdə, yaxud Yevlax şəhərlərinə getməkdən imtina edir, onlar daha çox Rusiya sülhməramlılarının nəzarətində olan yerdə danışmaq istəyirlər. Hətta bunun ardınca, Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasının ərazisi də göstərilir. Lakin...

Lakin Nersisyanın açıqlamasında əsas diqqətçəkən məqamlardan biri "Bakı ilə danışıqların xalqa açıq olması" ilə bağlı dedikləridir. Separatçı bildirir ki, "təşəbbüs göstərmək, xalqa açıq dialoq aparmaq lazımdır".

### Rusiya da, artıq bir sıra kozırlarını itirdiyinin fərqinə varıb

Rejim qalıqları bir tərəfdən Rusiyaya Bakı ilə görüşün təşkil edilməsi üçün yalvarır, digər tərəfdən, "dialoq xalqa açıq olmalıdır" deyir. Bu fakt isə onların düşdüyü çıxılmaz vəziyyətdən xəbər verir. Başqa tərəfdən, Rusiya da artıq bir sıra kozırlarını itirdiyinin fərqinə varıb. Daha doğrusu, rəsmi Bakının sərt, qətiyyətli, zaman-zaman isə kəskin mövqeyi, özünün suveren ərazilərində qarşısına qoyduğu məqsədlərini realizə etməsi Kremlin necə deyərlər, yaxasını kənara çəkməsi ilə nəticələnib.

Misal üçün, Bakı Ağdam yolundan istifadədə israrlıdır və Qarabağdakı erməni nümayəndələri ilə Yevlax, daha sonra Bərdədə görüşün keçirilməsini, Ağdam marşrutu və reinteqrasiya məsələsinin müzakirəsini təklif etdi. Ağdam yolundan istifadənin alternativi yoxdur, bunu separatçılar da anlayır.

### Xankəndidə günlərdir cavab gözləsələr də, nəticə yoxdur

Məsələn, erməni mənbələr ötən həftə məlumat yayırdı ki, Araik və başının dəstəsi Ağdam yolundan istifadəni müzakirə edir, yaxın günlərdə bununla bağlı qərarı açıqlayacaq. Bu məlumat separatçılar tərəfindən təkzib olundu. Halbuki, Nersisyanın açıqlamaları Ağdam yolunun açılmasını qəbul etmək məcburiyyətində qaldıqlarını göstərir. Lakin separatçılar öz oyunlarını oynamağa da cəhd edir. Onlar Ağdam yolunun açılması ilə razılaşmaq məcburiyyətində olsalar da, bununla bağlı müzakirələrin Yevlaxda, yaxud Bərdədə yox, sülhməramlıların müvəqqəti nəzarət etdiyi ərazilərdə keçirilməsinə çalışır, Rusiyanı vasitəçiyə, özlərini "tərəfə" çevirmək istəyirlər.

Başqa tərəfdən, Xankəndidə günlərdir cavab gözləsələr də, nəticə yoxdur. Çünki Bakı onların istəklərini qəti şəkildə rədd edir. Yeganə yol Bakının təklif etdiyi ərazidə Ağdam marşrutunu, ümumiyyətlə, reinteqrasiya prosesini müzakirə etməkdir. Bu da baş tutmasa, artıq nəyin-necə və nə vaxt olacağı an məsələsinə çevrilir...

***Afət Tahirqızı***

ŞƏRH



*Qardaş, dost ölkələr olan Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyədə inkişafı dövlətlərarası, eləcə də regionun ümumi tərəqqisində, sabitliyin, sülh və əmin-amanlığın bərqərar olmasında əhəmiyyət kəsb edir. Müasir dövrümüzdə Türkiyə və Azərbaycanın təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli mühüm layihələr icra olunur. Bir-birinin ardınca həyata keçirilən tədbirlər, imzalanan müqavilələr qarşılıqlı münasibətlərdə mövcud təməli daha da möhkəmləndirib.*

# Azərbaycan və Türkiyənin sarsılmaz birliyi!

Təhlil

Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə əsaslı təmələ sahib olan Azərbaycan və Türkiyə arasında əlaqələr 44 günlük Vətən müharibəsinin ilk günündən sonuna qədər "Can Azərbaycan" deyib, yanımızdan bir an belə kənarlaşmayan qardaş Türkiyənin mənəvi, siyasi dəstəyi ilə bir daha özünü təsdiqləmiş oldu. "Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində ilk saatlardan başlayaraq son günə qədər Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verdi. Eyni zamanda, 44 günlük müharibə dövründə bütün Türkiyə xalqı Azərbaycanın yanında idi", - deyə dövlət başçımız bildirmişdi.2021-ci ilin iyulun 15-də Qars müqaviləsindən 100 il sonra Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qədim Azərbaycan şəhəri, türk mədəniyyətinin beşiyi olan Şuşada Bəyannamənin imzalanması iki qardaş ölkənin müttəfiqliyinin rəsmi təminatı oldu. Ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsini ehtiva edən sənəd tarixi əhəmiyyət kəsb edir.

## Azərbaycan və Türkiyə Silahlı qüvvələrinin birgə işbirliyi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul etməsi əlaqələrin davamıdır. Prezident İlham Əliyev Yaşar Gülərin Azərbaycan və Türkiyə Silahlı qüvvələrinin birgə işbirliyi ilə bağlı böyük səylər göstərdiyini və töhfələr verdiyini vurğulayaraq bu işbirliyinin çox yaxşı səviyyədə olduğunu qeyd etdi. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanın Prezident seçiləndən sonra Azərbaycana həyata keçirdiyi ilk dövlət səfərinə toxunaraq, bu səfər zamanı Hərbi Hava Qüvvələrinin yeni MərkəziTürkiyənin milli müdafiə naziri torpaqlarımızın işğaldan azad edilməsinə toxunaraq, şəhidlərimizin ruhunu ehtiramla yad etdi, Azərbaycan əsgərlərinin fədakarlıq və qəhrəmanlıqlarının heç zaman unudulmayacağını dedi. Yaşar Gülər qeyd etdi ki, Ümummilli Lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində Azərbaycanın beynəlxalq aləmin önəmli və nüfuzlu üzvünə çevrilməsi böyük qürur hissi doğurur. Nazir iki ölkənin dövlət başçıları arasında sıx münasibətlərin və təmasların əlaqələrimizin daha da güclənməsi işinə çox müsbət təsir göstərdiyini bildirdi və azərbaycanlı həmkarları ilə səmərəli qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd etdi.Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycan-Türkiyə arasında hərbi sahədə də əməkdaşlıq uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də isə Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Metin Gürakı qəbul edib. Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyi vurğulandı. Metin Gürakın vəzifəyə təyin olunmasından qısa zaman sonra ölkəmizə səfər etməsinin önəmi qeyd edildi və bu səfərin əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.Azərbaycan və Türkiyənin hərbi qurumları arasında səmərəli iş birliyinin həyata keçirildiyi qeyd edildi.

Təbii ki, ikitərəfli münasibətlər, qardaş ölkələrin strateji müttəfiqlər kimi regionda yaratdıqları tarixi reallıqlar sülhə, təhlükəsizliyin qorunmasına töhfəsini verir. Ulu Öndər Heydər Əliyev tərəfindən möhkəm təməl üzərində qoyulmuş dostluq və qardaşlıq münasibətləri Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

*Zümrüd BAYRAMOVA*

# "Qraparak" qəzeti: Paşinyan bir neçə naziri istefaya göndərir

**Ermənistan mətbuatı yenidən baş nazir Nikol Paşinyanın hökumətdə təmsil olunan bəzi nazirləri dəyişmək niyyətində olduğu barədə yazılar dərc etməyə başlayıb. Ermənistan mediası xüsusilə son proseslər zamanı uğursuz duruma düşən Ermənistan hökumətinin N.Paşinyanı qane etmədiyi üçün kabinetdə radikal qərarlar qəbul edəcəyini yazır.**

"Qraparak" qəzeti isə yazır ki, artıq N.Paşinyan gizli toplantı keçirərək hökumət kabinetindən uzaqlaşdırılacaq nazirlər barədə yekun qərar verib. Erməni qəzeti iddia edir ki, bu barədə hələ rəsmi qərar qəbul olunmadığından baş verəcək dəyişikliklər barədə xəbər gizli saxlanılır. Qəzetin yazdığına görə, hökumət mənbələrində artıq 2 nazirin "qələminin qırıldığı" barədə məlumat dolaşır.

*Mətləb Salahov*





MƏTLƏB
Metlebsalahov@mail.ru

# "Hacilərin" kediçikləri və məhv edilən MUSİQİMİZ!!!

**Həm köşə yazılarımda, həm də sosial şəbəkədəki paylaşımlarımda bir çox dəfə bunu yazmışdım: Azərbaycan musiqisi bu gün əxlaq və mənəviyyat yoxsulu olan, ərini yataqda qoyub "həcilərə" qaçan gözəlçə "müğənnilər" ucbatından artıq tarixdən silinməklə, kütləyə çevrilmiş cəmiyyət isə musiqi duyumunu itirməklə üz-üzə qalıb. Tam ciddi olaraq vəziyyət bu acınacaqlı haldadır. Yüz illər boyu yol gələn Azərbaycan musiqisi bu gün reanimasiyada can verən xəstənin halından daha betər gündədir. Fonoqramla, səsyazma studiyalarının köməyi ilə "ifa edən müğənni" sürüsü bu gün həşərat kimi cəmiyyəti başına alıb gedir.**

Elementar mədəniyyət və təhsil sahibi olmayan, musiqidən qəti anlayışı olmayan gözəlçə "maskaların" bazarına çevrilib musiqi sahəsi. Bu gün təkcə Azərbaycan mədəniyyətini deyil, elə Azərbaycanın ÖZÜNÜ dünyaya tanıdan böyük, ciddi misiqidən diletant, barbar və əxlaq yoxsulu olan "gözəlçələrin" kütlə üçün hazırladıqları "nanay-nanay" çalğısının səviyyəsinə enmişik. Zövqlər də aşağı səviyyəyə yuvarlanıb.

Ötən əsrin 70-80-ci illərində Filarmoniya lojalarında Çaykovskinin "Qu gölü" baletinə, Niyazinin "Xosrov və Şirin" operasına, "Çitra" baletinə, "Rast" simfonik muğamına canlı tamaşa etməkdən ötrü konsert biletləri axtaran, intellektual, səviyyəli cəmiyyətin əvəzinə bu gün "nanay-nanay", "ay canı yanmış" kimi küçə səviyyəli kütlə cırıltısı ifa edən maskalara şəkil çəkdirmək üçün sıraya düzülən kütləni müşahidə edirik. Səviyyələrin, zövqlərin və musiqi düşüncələrinin faciəli, bərbad fərqini göstərən İKİ ƏSRİN ACI MÜQAYİSƏSİ!

İstənilən kəslə müzakirə, hətta mübahisə etməyə hazıram ki, Azərbaycan musiqisi üçün, elə Azərbaycan ədəbiyyatı üçün də ən qızıl dövr ötən əsrin 60-70-80-ci illəri sayılmalıdır. Amma təkcə musiqi və ədəbiyyat üçünmü? – həm də Azərbaycan cəmiyyəti üçün qızıl dövr sayılır o illər. İntellektual, musiqi və ədəbi zövqü yüksək olan, mənəvi və əxlaqi dəyərlərə sahib olan, şəhər mədəniyyətinin hələ itmədiyi dövr sayılır ötən əsrin 60-70-80-ci illəri. İncəsənətə, mədəniyyətə dəyər verən cəmiyyət mövcud idi o illərdə. Hələ o zaman Bakıda harada gəldi tikilən, tikinti qaydalarına qəti uyğun olmayan, zəlzələlər üçün qorxunc təhlükə sayılan "novostroykalar", o "novostroykalarda" zibilini qapının kandarında qoyan, bəzəkli liftlərdə tualet ehtiyacını ödəyən, küçədə harada gəldi tüpürüb bağırıb-çağıran, şəhər mədəniyyətindən bixəbər olan, mədəniyyət anlayışından bixəbər "şəhərlilər" mövcud deyildi.

Ötən əsrin 80-ci illərinin sonu, həm də Azərbaycan ədəbiyyatının "suyu qurumuş dəyirman"a dönüş tarixidir. Həm də ədəbiyyatı söyüd ağacına, gövdəsi qurumuş çürük ağaca çevrilmiş, bu gün haqqında ancaq keçmişdəki xatirələr danışılan ÖLMÜŞ ƏDƏBİYYAT...

Bu gün isə vəziyyət tam fərqlidir. "Həcilərin" qoynunda uyuyan maskaların güclü pullar hesabına kütlə üçün hazırladıqları "mahnılar" səviyyəsiz efirləri zəbt edib gedir. Azərbaycan cəmiyyəti bu gün əxlaqsız, ləçər "müğənnilərin" fanatına çevrilib, səviyyəsiz "mahnılarına" qulaq kəsilirsə, demək, bu işdə həm də fahişə və cinsi azlıqları - "per-petuxları" reklam edən televiziya kanallarının da mənəvi cinayət payı yüksəkdir. Onsuz da bütün mövsümü yaşlı qadınları, imkansız insanları efirlərə çıxarıb əl meymunu kimi oynadan, onları ələ salan, bununla da özünü "teleaparıcı", telekanal adlandıran diletantlar, bu xalqa qarşı ən böyük pisliyi sizlər edirsiniz!

Elementar mədəniyyəti və musiqi savadı olmayan gözəlçələri müğənni adı ilə reklam edəndə, həm də böyük Azərbaycan musiqisinə qarşı bağışlanılmaz cinayət törətdiklərinin fərqində olmalıdırlar. Amma milli dəyərlərə azacıq saygı onlarda nə gəzir. Bilə-bilə mənəvi dəyərləri efir xatirinə məhv edirlər. Xüsusilə, diletant səviyyəli aparıcı sürüsü lap komik durumdadır. Əyinbaşını Andrey Moloxova, Zühal Topala, daha kimlərə oxşadan bu səviyyə yoxsulları həm də efirlərə çıxardıqları qarğaları reklam etməklə musiqi zövqümüzü məhv edirlər. Ağır mənzərədir. Amma çox-çox əmin olmaq istəyrəm ki, yenə də filarmoniya lojalarında dünya musiqisini dinləyən Azərbaycan cəmiyyəti yetişəcək. Ümidim bu günədir....



# Sağlamlıq turizmi: Kəlbəcərin "İstisu"yu

***Azərbaycanın dünyada turizm məkanı kimi tanınması dövlətin bu sahəyə göstərdiyi diqqət və qayğısının nəticəsidir. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də turizmin daha da inkişaf etdirilməsi əksini tapmışdır. Hazırda dünya ölkələri arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilib.Statistik məlumatlara istinadən deyə bilərik ki, 2022-ci ildə Azərbaycana dünyanın 178 ölkəsindən 1602,3 min və ya əvvəlki illə müqayisədə 2 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.***

2022-ci ilin yanvar–noyabr aylarının ötən ilin eyni ayları ilə müqayisədə 2,1 dəfə artım müşahidə edilib. Növbəti 4 il üçün turizmin hərtərəfli inkişafına yönəlmiş 10 əsas təməl istiqamət üzrə hədəflər müəyyənləşdirilib. Bu hədəflər həm də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan məqsəd və tapşırıqların icrasına istiqamətlənib. Əsas məqsəd Azərbaycanı dayanıqlı, əlçatan və keyfiyyətli turizm məkanına çevirməkdir. Əsas hədəflərdən biri 2026-cı ildə Azərbaycana səfər edən əcnəbilərin sayını 4 milyon nəfərə, ölkə daxilində turizm səfəri edən yerli vətəndaşların sayını isə 6 milyon nəfərə çatdırmaqdır. 2026-cı ildə turizm xərcləmələri 2021-ci illə müqayisədə 4 dəfə artaraq 11,2 milyard manata çatacaq, bunun da 49 faizi, yaxud 5,5 milyard manatı əcnəbi turistlərin payına düşəcək. Ümumilikdə isə 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda ÜDM istehsalı 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq, orta hesabla hər il turizm sektorunda 20 faiz artım qeydə alınacaqdır.

Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir.İnkişaf etmiş ölkələrin maddi abidələri, yeraltı və yerüstü sərvətləri ilə cəlb edən Azərbaycanda yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması mövsümilik anlayışını aradan qaldırmaqla davamlı turizmə nail olmağa şərait yaratdı. Şahdağ qış-yay turizm kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafına uğurlar gətirmiş oldu. Dünyadakı bu tipli komplekslərdən müasirliyi və universallığı ilə fərqlənən komplek Şahdağ qış-yay turizm kompleksi müasir tələblərə cavab verir. "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleks idə mövsümlük anlayışını aradan qaldıran istirahət yerləri sırasındadır. "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinin məqsədi ölkəmizdə il boyu dağ turizmini inkişaf etdirmək, yerli və xarici turistlərin yüksək səviyyəli istirahətini təmin etməkdir. Kompleks turistlərə ilboyu kanat gəzintisi, qış mövsümündə müxtəlif mürəkkəblik səviyyəli yollarda xizəklə sürüşməyi, xizəklə sürüşmə təlimi, xizəkçilik məktəbi, iaşə xidməti, uşaq istirahət mərkəzi, otel və digər xidmətləri təklif edir. Kompleksin inşası 2 mərhələdən ibarətdir.

## TURİZM VƏ ONUN FƏRQLİ NÖVLƏRİ

Davamlı olaraq ünvanlı layihələr, turizm sahəsində reallaşan layihələr, görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, idman turizmi, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib. Çoxsaylı tarixi abidələr, düzənlikdən yüksək dağ zonasına qədər bir-birini əvəzləyən gözəl təbiət mənzərələri, zəngin meşə örtüyü, əlverişli iqlim, gur dağ çayları, mineral və qeyri-mineral bulaqlar, barlı-bəhərli meyvə bağları, atla gəzinti, meşə gəzintisi, balıq ovu, gөldə qayıqla gəzinti və s. turizmin inkişafı üçün mühüm amillər sırasında yer alır.Ölkəmizdə bütün növ turizmlə yanaşı, sağlamlıq turizminin inkişafı üçün potensial böyükdür. Burada turistlər yüksək keyfiyyətli tibbi müalicə əldə edə bilirlər. Min bir dərdin dərmanı olan Azərbaycanın müxtəlif bölgələrində yerləşən istisu mənbələrinin, Naxçıvandakı Duzdağın, Şabrandakı Qalaaltının müalicəvi imkanlarından və s. insanlar yararlanırlar. Masallının istirahət mərkəzləri arasında "İstisu"yun öz yeri var. Buraya gələnlər dincəlməklə yanaşı, müxtəlif xəstəliklərdən də yaxa qurtarmaq imkanı əldə edirlər.Sağlamlıq turizmindən danışarkən Azərbaycanın şimal-qərbində yerləşən Naftalan şəhərinin də adını qeyd etməliyik. Xam neftdən müalicəvi istifadəyə görə dünyada məşhur olan Naftalan neftindən, əzələ, dəri, sümük, həmçinin ginekoloji və nevroloji xəstəliklərin müalicəsində də istifadə olunur. Ötən əsrin 80-ci illərində Naftalana müalicə üçün hər il 70 min turist gəlirdi. Lakin sonradan Ermənistanın Azərbaycanın 20 faiz torpaqlarını işğalı nəticəsində öz el-obalarından didərgin düşən insanların bir qismi şəhərdəki sanatoriyalarda məskunlaşmışdı. Bu gün Naftalanın kurort şəhəri kimi nüfuzunun bərpası üçün böyük işlər görülüb və bu davam etməkdədir. Vurğulamaq yerinə düşər ki, 1970-1990-cı illər Naftalan şəhərində dönüş baş verib. Ümummilli Lider Heydər Əliyev şəhərin inkişafı və böyük şöhrət qazanması üçün misilsiz xidmətlər göstərib.

Belə ki, o illərdə şəhərdə müxtəlif sosial və iqtisadi təyinatlı müəssisələr tikilib istifadəyə verilib. Sonrakı dövrdə isə Prezident İlham Əliyevin şəxsi təşəbbüsü və həyata keçirilən proqramlar sayəsində Naftalan şəhəri turizm sektorunda ön sıralara yüksəldi. Şəhərin əsasını sanatoriya–kurort infrastrukturu təşkil edir. Son illər müasir əsaslarla yeni kurortların yaradılması ilə şəhərin turizm potensialı genişləndirilib, sahibkarlığın inkişafı üçün münbit şərait formalaşıb.

## "Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə"

Bu gün artıq işğaldan azad olunuan ərzilərimizdə abadlıq-quruculuq işləri geniş vüsət alıb. 1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmiş Kəlbəcər 27 illik



işğal altında qalsa da yenidən öz sakinlərini qoynuna alır. Dövlət başçısının vurğuladığı kimi, "Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə".Dövlət başçısının işğaldan azad olunan ərazilərə səfəri bu ərazilərin tezliklə abadlaşdırılmasından, yeni, müsir əraziyə çevrilməsindən soraqdır. Bildiyiniz kimi ötən il dövlət başçısının Kəlbəcərə səfəri çərçivəsində "İstisu" mineral su zavodunun təməlini qoymuşdur. İstifadəyə veriləcək zavodda həm şüşə, həm də plastik butulka istehsalı xətlərinin qurulması planlaşdırılır. Müəssisədə gündə 327 min, ildə isə 95 milyon butulka mineral su istehsal olunacaq. Suyun mənbəyinə gəldikdə, 200 metr dərinlikdə yeni quyu qazılıb. Çıxışda istilik 60-65 C dərəcəyə bərabərdir.Qeyd edək ki, "İstisu" bulağının suyu kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə seçilir. Laborator analizlər göstərib ki, minerallarin miqdarı 6,7 qrama çatan bir litr suyun tərkibi litium, brom, yod, mərgümüş, fosfor, sink, mis, nikel, maqnezium, dəmir və digər kimyəvi maddələrlə zəngindir. Bu bulaqların suyundan mədə-bağırsaq, qaraciyər, öd kisəsi və sair xəstəliklərin müalicəsində istifadə edilir. Statistikaya görə, Azərbaycanda mineral suların ümumi ehtiyatının 33 faizi Kəlbəcər və Laçın rayonlarında yerləşir. Bu rayonlarda suların gündəlik istismar ehtiyatı 7393 kubmetr təşkil edir ki, bunun da 42 faizi Laçının, 58 faizi isə Kəlbəcərin payına düşür.Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da 27 il işğalda qalmışdı. Kəlbəcərin məşhur olan "İstisu" sanatoriyası da işğal altında idi. İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb. Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir.

## "İstisu" mineral sudoldurma zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlərlə tanışlıq

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda "İstisu" mineral sudoldurma zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlər ilə tanış olublar.Kəlbəcər "İstisu" mineral sudoldurma zavodu 1981-ci ildə inşa edilib. Zavod 1991-ci ilin sonlarında fəaliyyətini dayandırıb. Yeni tikiləcək "İstisu" zavodu 7,8 min kvadratmetr ərazini əhatə edəcək. Zavodda Almaniya şirkəti tərəfindən təchiz olunan şüşə və plastik qablaşdırma istehsal xətləri fəaliyyət göstərəcək. Şüşə dolum xəttinin nominal gücü saatda 16 min, plastik dolum xəttinin nominal gücü isə saatda 8 min ədəd təşkil edəcək. Aylıq istehsal gücü isə 8 milyon ədədə yaxın olacaq.Bərpa ediləcək "İstisu" Müalicə-İstirahət Kompleksinin ümumi sahəsi 32 min kvadratmetr olacaq. Kompleksdə 145 nömrə, eləcə də 10 kottec yaradılacaq.Kompleksdəki SPA Mərkəzində isə termal hamam, müalicəvi vanna, həkim otağı, o cümlədən müxtəlif müalicəvi hovuzlar, prosedur otaqları, təzyiqli su terapiyası, masaj, buxar, duz otaqları, istirahət zonaları, gözəllik salonu mövcud olacaq. Burada müxtəlif iaşə obyektləri - restoranlar, uşaq əyləncə mərkəzi, oyun otağı, sportskafe, karaoke otağı, kafeteriya da qonaqlara xidmət göstərəcək."Aşağı İstisu" mənbəyindən alman mütəxəssislər tərəfindən nümunələr götürülüb, suyun analizi və testi həyata keçirilib. Aparılan analizlər və balneoloji rəylərə əsasən, İstisu təbii mineral suyu fizioloji, metabolik və müalicəvi təsirlərə malikdir. Bu isə mədə-bağırsaq traktının funksional pozğunluqlarının müalicəsi və həzm funksiyasının stimullaşdırılması, yaşlılarda natrium və maye çatışmazlığının, ortostatik tənzimləmə pozğunluqlarının, sidik yollarında infeksiyaların müalicəsi, kalsium oksalat, sistin və sidik turşusu daşlarının profilaktikası və metafilaksisi, uşaqlarda və yeniyetmələrdə diş kariyesinin profilaktikası, eləcə də böyüklər üçün dəstəkləyici təsir baxımından çox faydalıdır.

Onu da bildirək ki, ermənilər Azərbaycanın işğal altında olan bütün əraziləri kimi, Kəlbəcəri də dağıtmış, onun tarixi abidələrini darmadağın etmişdir. Kəlbəcər rayonu böyük tarixi keçmişi, zəngin mədəniyyəti, qədim tarixi abidələri ilə seçilir. Dağıdılmış mədəni abidələr Alban məbədi, Alban kilsəsi, Lök qalası, Uluxan qalası, Alban kilsəsi, Qalaboynu qalası, Comərd qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı



kəndində məscid, Kəlbəcər Tarixdiyarşünaslıq muzeyi, Aşıq Şəmşir adına mədəniyyət evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı və digər abidələr 27 illik işğaldan azad oldu. Kəlbəcər rayonu faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngin olan diyardır. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Söyüdlü - Zod qızıl mədəni tarixə uzun əsrlərdir məlumdur. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Ağyataqda yerləşən qızıl yataqları 27 il idi ki, Ermənistan respublikası tərəfindən talan edilirdi. İşğal edilmiş ərazilərdə 155 adda müxtəlif növ faydalı qazıntı yataqları mövcud olub. Ermənilər bu ehtiyatlardan daha çox qızılı talan ediblər. Zod mədəninin qanunsuz istismarı nəticəsində Ermənistan büdcəsi təkcə 2019-cu ildə 52 milyon ABŞ dolları qazanıb. Bu gün işğaldan azad olunan ərazilərimiz kimi, Kəlbəcərdə də quruculuq-abadlıq işlərinə start verilib.Əlbəttə ki, həyata keçirilən layihələr, görülən işlər bir daha deməyə imkan verir ki, işğaldan azad olunan ərazilərimiz müasir standartlara uyğun olaraq qurulur.

***Nəzakət ƏLƏDDİNQIZI***





# Ucaldıqca dəyərləri azaldan hasarlar...

*Hasar... Günümüzdə ən dəbdə olan tikinti. İndi artıq insanlar ev tikib hasar çəkmirlər. Əksinə, torpağı alar-almaz, ilk iş ərazinin hasarlanması olur. Hasarlanma da nə hasarlanma... İnsanlar sanki bir-biriləri arasında Çin səddi çəkirlər. Ölkəmizin istənilən şəhər, qəsəbə və kəndində bunu görmək mümkündür ki, hündür hasarlar qonşular arasında münasibətləri məhv edib, qonşuluq əlaqələrini aradan qaldırıb. İndi uca hasarlar dəyərlərimizi azaldan bir vasitəyə çevirib. Bəzən üç metr, bəzənsə bundan da hündür tikilən hasarlar əsrlərlə yaşadılan qonşuluq münasibətlərinin dünəndən bu günə gəlməsinə qarşı silaha çevrilib.*

Elə bugünkü uca hasarların fonunda çox da uzaq olmayan keçmişə getməmək mümkün deyil. Bugünkü hasarlar vaxtilə evlərimiz arasındakı hasarları xatırlatmaya bilmir. Düşünürsən və deyirsən: o hasarlar, bu hasarlar...

## Onlar, əslində, hasar deyildi

Bəli, bir neçə ilə qədər şəhər, qəsəbə və kəndlərimizdə qonşular arasındakı hasarlar gəlir gözlər önünə. Onlara, əslində, hasar demək də olmazdı. Çünki hazırda gördüklərimizə əsasən hasar dedikdə göz önünə hündür, keçilməz bir sədd gəlir. Bu səbəbdən də onlar hasar deyildi. Onlar çəpər, simdən toxunan şəbəkə idi. O çəpərlər bugünkü hasarlardan tamamilə fərqlənirdi. Sadəcə qonşunun toyuq-cücəsinin o biri qonşuya ziyan verməməsi, bəlkə də ərazilərin bilinməsi üçün çəkilirdi, bilmirəm, lakin onların varlığı elə bir rol oynamırdı. Çünki bir qonşunun həyətindən o biri qonşunun həyəti də, evi də görünürdü, səsi də aydınca eşidilirdi.

Həmin çəpərlər bugünkü hasarlar qədər baha başa gəlmirdi. Kol-kosdan, qamışdan, ağacların budanmış budaqlarından düzəldilirdi. Adətən böyürtkən, moruq kimi gövdəsi tikanlı olan bitkilər çəpər yerinə əkilirdi ki, onun rolunu oynasın. Belə evlərdə isə böyürtkən və moruq kollarının bu üzünü bir qonşu, o biri tərəfini o qonşu yığardı.

Qonşular bu çəpərlərin o tərəf-bu tərəfindən dayanıb söhbət edərdilər. Bir-birilərinə bişirdiklərindən, bağ-bostanda yetişdirdiklərindən pay verərdilər. Bütün evlərdə bu hasarların bir tərəfi əzik olardı. Bu, qonşuların bir-birinə gedib-gəlməsi üçün belə olurdu. O qədər oradan keçərdilər ki, çəpərin bu hissəsi o biri tərəflərdən fərqlənərdi.

O qonşular oturub çay içmək, istirahət etmək üçün bir ağacın altına xalça-palaz salanda da qonşuya yaxın ağacı seçərdilər. Çünki o biri qonşu da eynilə belə edərdi ki, orada söhbətləşə bilsinlər. Və yaxud taxtadan düzəldilən stol və oturacaqlar üçün də hər iki qonşu tərəfindən çəpərə yaxın yer seçilərdi.

Beləliklə də gözəl qonşuluq münasibətləri, əlaqələri formalaşırdı. Qonşu-qonşunun dərd-sərini bilərdi. Xeyirindən-şərindən xəbərdar olardı. Xəstəsindən, əsgərə gedənindən, gələnindən-gedənindən xəbəri olardı. Nədənsə o çəpərli evlərdən yüksək səslər də gəlməzdi ki, qonşunu narahat etsin. Qonşu qonşunun yolunu belə gözləyirdi. Ona görə də bir-birinin toyunda-düyünündə, yasında yaxından iştirak edirdilər. Birinin qonağı olanda, o biri qonşu köməyə gəlirdi. Burada tanışlıqlar başlanırdı. Dəfələrdə şahidi olmuşuq ki, qonaq qonşuya elə isinişib ki, gedəndən sonra onunla əlaqələr yaradıb. Bir də gələndə onun adına hədiyyə gətirib. Və yaxud get-gəlləri başlayıb. Bu tanışlıq yeri gələndə qohumluq dərəcəsinə qədər çatıb. Yəni, bir-birilərindən qız alıb, qız veriblər.

## Uşaqlıq çağından xatirələr...

Yadımdadır, uşaq vaxtı kəndə gedərdik. Nənəm hana qurub, xalça toxuyardı. O zaman tək nənəmgildə deyil, bütün evlərdə xalça toxunurdu. Bir sözlə, qadınlar gedib mağazadan xalça almırdı. Öz döşənəcəklərini özləri istehsal edirdilər. Qonşular axşamlar dəstə-dəstə gəlirdi. Növbə ilə xalça toxuyurdular. Elə bu köməkliyin sayəsində də bir aya, bəlkə də bundan da tez böyük bir xalça toxunub kəsilirdi, yerə salınırdı.

Biz də nənəmlə, bibimlə birlikdə qonşulara xalça toxumağa gedərdik. Həm də qonşunun qapısından yox, aradakı çəpərin üstündə keçib gedərdik. O qədər maraqlı olurdu ki, həmin axşamlar. Qız-gəlinlərin şirin söhbəti, şaqraq gülüşləri otaqla bir olurdu. Arada ağbirçək qadınlar onlara "ay qız, səsiniz ucadan gəlir ha... O tərəfdə eşidilir axı, ayıb deyil?"deyirdilər. Cavanlar da səslərini azaldır, bir az sonra yenə ağbirçəklərin məzəmmətini eşidirdilər.

Axşamçağları mal-heyvan çöldən gələndə elə gözəl mənzərə yaranırdı ki. Bir-birindən görünən həyətlərdə sağılan inəklər, qoyunlar, insanların axşamçağı işləri-o tərəf-bu tərəfə qaçmaları, toyuq-cücəni yemləmələri, onları hinlərinə tərəf səsləmələri, ətrafda tüstüləyən samovarlar yaradırdı bu mənzərəni. Bir də baxırdın ki, qonşu qadın çəpərin o tərəfindən səsləyir: Ay Tutu xala, pendir mayası varındı, bir atımlıq verəsən mənə, pendir vurmaq istəyirdim, baxıram ki, maya qalmayıb. Süd də qalıb əlimdə.

Nənəm də mayanı mənimlə o xalaya göndərirdi. Çəpərin başındanca əlimizi uzadıb verib-alırdıq. Tək maya deyil, bəzən bir atımlıq çay, bəzən iki-üç ədəd kibrit, bəzən 2-3 kartof, bəzən də hansısa əşya...

## Görmədiklərimizi gördük

Çəpərin o tərəfinə düşən meyvə o qonşuya çatırdı. Ta bu qonşu deməzdi ki, onu yığ ver mənə, yaxud da özü keçib yığmazdı. Hansı ki, keçmək üçün bir maneə də yox idi. Lakin sonralar qonşular arasında "mənim ağacım, mənim meyvəm" söhbətini də eşitməli olduq. Söhbət metrlərlə yüksələn hasarların o üzündəki və bu üzündəki qonşulardan gedir. Biri qoz çırpanda və yaxud hasara yaxın meyvə qonşunun həyətinə töküləndə əlinə vedrə alıb qonşunun darvazasını döyən, "gəlmişəm meyvəmi yığam" deyənləri də gördük. Meyvə, ağac üstündə bir-birilərini biabır-rüsvay edən qonşuları da gördük. "Bu mənimdir, o sənindir" deyərək ağı-qaranı aradan götürənləri də gördük. Qonşudan gələn səsə görə bir-birini polisə verən qonşuları da gördük. Bir-birinin adını bilməyən, xeyirindən-şərindən xəbərsiz qonşuları da gördük. Yüzlərlə saya biləcəyimiz belə nümunələri hasarlar yavaş-yavaş ucaldılıb 2-3, hətta bundan da çox metrlərə çatdırılanda gördük. İki qardaşın bir-biriləri arasına nə ucalıqda hasar çəkməsini, nə ucalıqda darvaza qapısı qoymasını gördük.

İndi vəzifədə olanların hamısı ata-baba kəndlərində özləri üçün villalar tikirlər axı. Yayda istirahət üçün. Maraqlıdır, bu evlərə elə hündür hasar çəkirlər ki, ətraf qətiyyən görünmür. Uca bir yamacın başında, heç bir qonşusu olmayan evlərə bu qədər yüksək hasarın çəkilməsi nə üçündür, bunu anlamaq çətindir. Deyəsən bu hasar məsələsi artıq qonşu ilə aradakı sədd məsələsindən daha artıq bizim təxəyyül xəstəliyimiz ilə əlaqədardır.

Ardı Səh. 11





# Ucaldıqca dəyərləri azaldan hasarlar...







Əvvəli-Səh-10

Çünki qonşu olmayan yerdə hasarın çəkilməsi bundan başqa bir məna kəsb etmir.

### Hasarsız ev olmaz

Müasir dövrün xəstəliyi olan təxəyyül çatışmazlığına görə, hasarsız ev olmaz. Kişinin hasarı olmalıdır. Elə bu qənaətlə də bütün şəhər, qəsəbə və kəndlər daşlaşır. Evlər görünməz olur. Qonşuluq əlaqələri bitməklə yanaşı, təbiətin gözəlliyi də bitir. Gözə görünən yalnız metrlərlə uzanan daş hasarlardır.

Hazırda ölkəmizdə qanunların hasarı hansı ucalıqda çəkməyə icazə məsələsini də yada salmır. Çünki qonşular çox halda bir-birindən şikayət etmir. Ona görə ki, hamı bu xəstəliyə mübtəla olub və hündür hasar çəkmək onların hər birinin arzusudur. Həyətə düşən günəşin qarşısının alınması, kölgəliyin yaranması çox vaxt ağıla belə gəlmir. Hansı ki, bağ və şəxsi evlərdə günəşə də, kölgəliyə də böyük ehtiyac var. Çünki həm insanlar, həm heyvanlar, həm də ağac və bitkilər üçün günəş nə qədər əhəmiyyətlidirsə, kölgəlik də bir o qədər əhəmiyyətlidir. Lakin hündür hasarlar günəşin düşmə istiqamətini də, kölgənin yaranma səmtini də dəyişdirdiyindən ta bu evlərə ev demək olmaz. Orada yaşamaq isə xəstəlikdən savayı bir şey deyil. Ağac və bitkilər belə həyətlərdə inkişafdan qalır, heyvanlar isə həbsxana həyatı yaşamaqla bərabər, həm də bəzən daimi günəşdən, bəzənsə daimi kölgədən bezərək olmayanı axtarırlar.

### Hasarların tikintisinə dair tələblər

Hər bir tikinti işi müəyyən qanun çərçivəsində həyata keçirildiyi kimi, hasar tikmək də qanunla tənzimlənir. Belə ki, Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsinin 73-cü maddəsinə əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, hasarların hündürlüyü 2 metr 20 santimetrdən çox olmamalıdır.

İki yanaşı torpaq sahələrinin səviyyələri müxtəlif olduqda, hasarın hündürlüyünün istinad nöqtəsi qismində torpaq sahəsinin ən yuxarı səviyyəsi qəbul edilir.

Mühəndis-kommunikasiya təminatı xətlərinin çəkilməsi üçün başqa əlverişli həll yollarının olmadığı təqdirdə, qonşu mühəndis-kommunikasiya təminatı xətlərinin öz sahəsindən keçməsinə icazə verməlidir.

Qonşu torpaq sahələrinin şaquli planlaşdırılması zamanı atmosfer yağıntılarının və suvarma sularının bir qonşunun torpağından digərinə axmaması üçün müvafiq tədbirlər görülməlidir. Atmosfer yağıntılarından yaranan suların sahənin relyef mürəkkəbliyi ilə əlaqədar qonşu ərazilərdən keçməklə kənarlaşdırılması şəhərsalma və tikintiyə dair normativ sənədlərdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

### Və hasarsız evlər

Avropada evlər arasında hasara ehtiyac duyulmur. Həm ona görə etmirlər ki, yaşayış ərazilərinin gözəlliyinə xələl gətirir, həm də insanlar bunu böyük bir qüsur kimi görürlər. Hasarlı evlər, xüsusilə, müsəlman ölkələrinə xasdır. Maraqlıdır, Avropa eynilə bizim 30-40 il öncəki təfəkkürümüzdədir, lakin biz bəlkə də Avropanın bizdən görüb-götürdüklərinin əksinə çıxıb "müasirləşmişik".

Hasara ehtiyac varmı? Düşünürəm ki, əsla. Mədəni və elə bu cür də yaşamağı bacaran insan üçün evlər arasında hasara ehtiyac olmaz. Çünki onlar bir-birilərinə ziyan verməyəcəklər. Hasar bəlkə də olar, lakin dizə qədər, ərazini müəyyən etmək üçün. Lakin onu metrlərlə yüksəyə qaldırmaq təxəyyül xəstəliyindən başqa bir şey deyil.

Nə üçün hasarları hündür tikirik? Bu sualı özünə verən olubmu? Bəlkə də dərindən düşünsək, hasarı tikməyə başlayarkən bunu götür-qoy etsək, o qərara gələrik ki, bu, əbəsdir. Biz bəlkə də hasarları ucalda-ucalda oğurluq etmək istəyənlərin də ağlını qarışdırıb onları cəlb edirik. Bu, özümüzü qorumaqdırsa, axı cinayətə elə özümüz rəvac veririk.

Yox, əgər başqa nə üçünsə hasarlar göyə qalxır, bax bunu da dərindən düşünmək lazımdır. Əslində isə biz hasarları yüksəltməzdən əvvəl, öz təxəyyülümüzü, düşüncəmizi yüksəltməliyik. Hasarları ucaltmazdan əvvəl mədəni səviyyəmizi, dünyaya baxışımızı yüksəltməliyik, deyilmi? Hasarla nəyi isə qoruya biləcəyimizi sanınca, özünütərbiyəyə daha üstünlük verməliyik. Belə olardısa, hasarlar elə əvvəlki kol-kosdan olan çəpərlər kimi qalardı. Ta hasarları daşlaşdırmaqla, yüksəltməklə dəyərlərimizi azaltmazdıq...

*Mətanət Məmmədova*



# Kor ol, kar ol, lal ol...

Mətanət Məmmədova

***Müasir gənclərin bizi bəzən qınaması, vallah, heç də yersiz deyil. Son zamanlar onların üstünə çox gedirik, bəzi məsələlərdə çox deyinirik, onları tənbeh edirik. Onlar da bizə "siz geridə qalmısınız, bu, belə deyil, bizim bildiyimiz, etdiyimiz kimidir",-deyirlər.***

Məsələn, bəzi gənclərimiz var ki, ictimai yerlərdə ucadan danışırlar, deyib-gülürlər. Biz də onları görəndə cin atına minirik. İstər-istəməz onlar barədə danışanda, qınayanda, cavabımızı belə alırıq ki, ay yazıqlar, müasir dövrdür, indi alçaqdan yox, ucadan danışmaq lazımdır ki, hər kəs eşitsin, gülsün, kefi açılsın. Bir də ki, ucadan danışmaq, gülmək dəbdir.

Tez-tez yolda, metroda, avtobusda, mağazada ağzında saqqız şövqlə çeynəyən gənclər görürsən. Yadına düşür ki, valideynlərimiz deyərdi, ictimai yerdə saqqız çeynəmək mədəniyyətsizlikdir, insanlara qarşı hörmətsizlikdir. İstəyirsən ki, bu tövsiyəni bəzi gənclərə edəsən. Qayıdıb nə desələr yaxşıdır? Saqqız çeynəmək müasirlikdir. İndi artıq sizin dövrünüz deyil. Saqqız təravətli nəfəsdir... Həm də dəbdir, məxsusilikdir.

Bu cavabı eşidəndə nə edirsən, matın-qutun quruyur.

Hazırkı cəmiyyətin müasirliklərindən biri də bəzi gənclərimizin geyimləridir ki, qızların yay-qış göbəkləri bayırdadır. Deyirsən, ay bala, bu nə geyimdir, axı sənə soyuq dəyər, xəstə olarsan, sabah bir qapını açıb gəlin gedəcəksən, ana olacaqsan. Nə üçün qorxmursan ki, səni bu geyimlə bəyənən olmaz? Nə desələr yaxşıdır? Cəhənnəmə bəyənsin, gora bəyənsinlər. İndi belə geyim bütün dünyada dəbdir. Bu, mənim tərzimdir, kim məni bəyənərsə, bu geyimlə də qəbul etməlidir.

Aldın cavabını, gözüm kəllənəmi çıxdı?

Bir də baxırsan ki, qarşıdan bir dəstə gənc oğlan gəlir. Birinin şalvarının dizi yoxdur, birinin saqqalı sinəsində, birinin saçı qalxıb göyün yeddinci qatına, o birinin saçı bir neçə rəngdədir, o birinin corabının bir tayı bir rəng, o biri tayı başqa rəngdir. Baxırsan-baxırsan, vallah, bilmirsən gülesən, ağlayasan, nə edəsən. Yeri gələndə söhbət açıb deyirsən ki, ay bala, kişinin kişi geyimi olar. O dizi yox şalvarı kişi əyninə geyinər məgər? O qadın saçı ilə kişi bayıra çıxar? Niyə o saçlarını qaydasında kəsdirmirsən? O corabı geyinəndə görmürsən ki, taykeşdir? Və yaxud da o saçını niyə çəhrayı rəngə boyamısan?

Hə, bunları deyib öyüd-nəsihət verəndə adamın üzünə elə qabarırlar ki, yerindəcə donub qalırsan. Cavabları isə bu olur ki, ay yazıq, sən keçmişdən gəlmisən. Biz isə bu gündə yaşayırıq. Buğunun dəbi budur. Həm də ki, kim istəyir cırıq şalvar geyinməsin, corabını taykeş yox, cüt geyinsin, saçını göyə qaldırmasın, yerə endirsin, rəngləməsin, öz rəngində saxlasın, onlardan bizə nə? Bu, bizim tərzimizdir.

Sən də udquna-udquna qalırsan, söz tapıb deyə bilmirsən. Bir də ki, axı nə deyəsən? Səni elə yerində oturdurlar ki, cınqırın da çıxmır.

Hə, elə qızlarımız var ki, əyinlərindəki bir qarışdan da qısa ətəklərini görəndə, deyirsən ki, İlahi, yəqin bunlar evdən çıxanda analarının başı mətbəxdə iş-gücə qarışıbmış, yoxsa... Fikirləşirsən ki, mən də olum bunun anası, nə olar, gəncdir, başa salım, düz yol göstərim. Deyirsən ki, qızım, bu ətəyin bir azacıq uzun olsa, sənə çox gözəl yaraşar. Qayıdıb sənə nə desə, yaxşıdır? "Sən get öz qızına yol göstər. Mən evdən çıxanda görənim var. Bir də axı sən nə bilirsən, müasirlik nədir, dəb nədir? Sizlər XX əsrdə qalmısınız, indi XXI əsrdir". Deyirsən ki, dilim, dilim-dilim olasan, farağat dayan da. Düz deyir də, anası var, evdən çıxanda görməyib məgər? Görməyib də özü bilər, görərdi də...

Heç nə, ta nə edəsən ki? Nə də etməlisən ki? Kor ol, görmə, kar ol, eşitmə, lal ol, danışma. Danışarsan, cavabını alarsan...

# Oğurluq iclas...

## Ermənisayaq "revanş" və ermənipərəst Makronun sönməyən məğlubiyyət ehtirası haqqında

***Beynəlxalq platformalarda Azərbaycana qarşı diplomatiya müharibəsindəki məğlubiyyətinin sayı artdıqca Ermənistan olan-qalan siyasi nüfuzunu da itirməkdədir. Ancaq deyəsən, uğursuz "hücumların" acı nəticələri düşmən ölkə rəhbərliyinə və Ermənistanı yeni oyunlara təhrik edən havadarlarına hələ də dərs olmayıb. Avqustun 23-də BMT-nin mənzil-qərargahında Ermənistanın BMT yanındakı Daimi Nümayəndəliyi tərəfindən Laçın yolu ilə bağlı, həmişə olduğu kimi, dezinformasiya yaymaq, vəziyyəti təhrif etmək məqsədi daşıyan növbəti təxribat xarakterli "qapalı iclası" göstərdi ki, ermənilər "revanş" xatirinə hər cür siyasi riyakarlığa və təxribata hazır və qadirdirlər.***



Atdıqları addım bütün etik, diplomatik qaydalara zidd olsa, ali təşkilatın uzun illər ərzində formalaşmış ənənələrini kobud şəkildə pozsa belə. Erməni həyasızlığının səviyyəsinə fikir verin ki, "qapalı iclas" BMT üzvlərinin böyük əksəriyyətindən gizlincə, yalnız bir qrup kiçik nümayəndənin və qərəzli ekspertlərin iştirakı ilə keçirilib. Özü də təşkilata üzv olan digər ölkələrin üzlərinə bağlanmış qapıya mühafizəçi qoyulmaqla. Bu mənda müzakirəyə qatılmaq kimi elementar hüquqları pozulmuş, hətta Ermənistan nümayəndələyi tərəfindən polislə hədələnmiş bir neçə ölkə diplomatlarının çaşqınlıqları və hiddətləri başadüşüləndir.

Ermənistan bu davranışı ilə bir daha nümayiş etdirdi ki, BMT kimi nüfuzlu platformada qərəzsiz və vicdanlı müzakirələrin aparılmasında maraqlı deyil. Çünki cəmi bir neçə gün əvvəl, avqustun 16-da BMT Təhlükəsizlik Şurasının (TŞ) Ermənistanın müraciəti əsasında keçirilmiş iclasında iştirak edən diplomatların əksəriyyəti Azərbaycanın haqlı mövqeyini müdafiə etmiş, fransız-erməni cütlüyünün bütün səylərinə baxmayaraq ölkəmiz əleyhinə hər hansı sənədin qəbul edilməsinə nail ola bilməmişdi. Görünür, Ermənistanın siyasi hakimiyyəti beynəlxalq platformanın açıq və substantiv müzakirələri nəticəsində aldığı layiqli cavabdan, üzləşdiyi rüsvayçı məğlubiyyətdən sonra daxili auditoriyanı sakitləşdirmək və ümidləndirmək məqsədilə bu cür riyakar addımlar atmaq qərarına gəlib. Oğurluğun ümumiyyətlə, erməni xislətinə yad olmadığını da nəzərə alsaq Ermənistanın BMT-nin mənzil-qərargahında oğurluq "qapalı iclas" keçirməsi təəccüb doğurmur. Biz ermənilərin, necə deyərlər, nə mal olduğunu bilirdik, bilməyənlər də görür, tanıyır, bilir...

Məlumdur ki, Ermənistanın təxribatçı və rüsvayçı davranışının arxasında düşmən ölkəni bu addımı atmağa təhrik edən qüvvələr durur. Bu qüvvələrin başında isə həmişə olduğu kimi, öz daxilində siyasi böhranın pik həddə çatdığı Makron Fransası gəlir. Elə ermənilərin BMT-dəki "qapalı iclas"ından dərhal sonra Fransanın növbəti dəfə Laçın yolundakı vəziyyətlə bağlı bu ali təşkilata müraciət edəcəyi ilə bağlı xəbərlər də təsdiq edir ki, Azərbaycana qarşı təxribatların ssenarisi Parisdə yazılmaqdadır. Fransanın "Le Figaro" nəşrinin direktor müavini, jurnalist Jan-Kristof Buisson yazdığına görə, ölkəsi yaxın günlərdə BMT TŞ-yə Laçın yolunun "açılması" ilə bağlı qətnamə təqdim etməyə hazırlaşır. Müraciət "Azərbaycanın Laçın yolunu bağladığına görə aclıqdan ölmək ərəfəsində olan 120 min Qarabağ sakininə yardım məqsədi daşıyır". Buisson əlavə edib ki, gələn həftə Parisdən və Fransanın digər əsas bölgələrindən Ermənistana humanitar yardım karvanı göndəriləcək.

Fransa Prezidenti Emmanuel Makron da "Le Point" nəşrinə müsahibəsində Qarabağın "blokadasından" danışıb. Etnik və dini azlıqlara qarşı dözümsüzlük nümayiş etdirən, XXI əsrdə hələ də müstəmləkə altında saxladığı xalqların hüquq və azadlıqlarını heçə saymağı dövlət siyasətinə çevirən, açıq-aşkar monoetnik cəmiyyətə nail olmağı hədəfləyən Fransa kimi bir ölkənin Prezidenti müsahibəsində utanmadan həmişə xalqların suverenliyinin tərəfdarı olduqlarını deyib. Makron guya Laçın yolunun bağlanması nəticəsində qəbuledilməz olan humanitar vəziyyətin yarandığını bildirərək, Fransanın rolunun humanitar yardım üçün təzyiq göstərmək olduğunu əlavə edib. Və təbii ki, otuz il ərzində Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə hörmət göstərməyən Fransa indi Ermənistanın dövlət sərhədləri üçün "təhlükənin mövcudluğundan" da narahatdır.

Əslində isə Ermənistanın sərhədləri üçün heç bir problem yoxdur. Problem Fransanın yürütdüyü ikibaşlı siyasi oyunbazlıqdadır. Xüsusilə hazırkı Prezident Emmanuel Makron dövründə dağılmış imperiyasının xarabalıqları üzərində neokolonolizmi yaşatmağa çalışan Fransanın de-fakto və de-yure əsarətində olan milli azlıqların hüquqlarını ümumiyyətlə, tanımaması, Avropa Şurasının Milli Azlıqlar haqqında Çərçivə Konvensiyasına qoşulmaqdan imtina etməsi bütün dünyanın gözü qarşısında demokratik dəyərlərin təhqir edilməsidir. Tarixi qanlı cinayətlərlə, günahsız insanlara qarşı qətliamlarla, soyqırımları ilə zəngin olan Fransa bu gün də qloballaşan dünyanı xilas edə biləcək beynəlxalq humanizm və sivilizasiyalararası dialoq çağırışlarına məhəl qoymadan öz eybəcər müstəmləkəçilik siyasətini davam etdirməkdədir. Fransanın daxilində də sosial vəziyyət gündən-günə ağırlaşır, xalqın narazılığı artır, demokratiya və söz azadlığı "polis dəyənəyi altında əzilir". Makron isə hələ də Ermənistanın dərdini çəkir, onun sönməyən erməni sevgisi sönməyən məğlubiyyət ehtirasına çevrilib. Görünür, öz ölkəsindəki problemləri həll etmək əvəzinə Ermənistanda revanşizmi qızışdıran, düşməni silahlandırmaqla Cənubi Qafqazda vəziyyəti gərginləşdirməyə çalışan Makrona BMT TŞ-də Azərbaycana bundan əvvəl nə az, nə çox, düz dörd dəfə rüsvayçı məğlubiyyət azlıq edir. Yoxsa sonuncu diplomatik fiaskodan heç on gün keçməmiş yenidən BMT TŞ-yə müraciət etmək fikrinə düşməzdi. Nə olar, Azərbaycan öz haqlı mövqeyini müdafiə etməyə hər zaman hazırdır.

***Mahir Rəsuloğlu***

# "Azərbaycan gəncliyi Ulu Öndərin ideyalarını ləyaqətlə həyata keçirir"



DEPUTAT ŞƏRH ETDİ

"Azərbaycan gənclərinin gələcəyi xoşbəxt və uğurludur. Çünki onların şərəfli keçmişi, möhkəm kökləri, vətənpərvər nəsilləri, vüqarlı ata-babaları var. Bu kəlmələri Ulu Öndər Heydər Əliyev sağlığında dəfələrlə xatırladırdı. Ümummilli lider Azərbaycan gənclərinə çox böyük qiymət verirdi. Dövlət başçısı kimi hər zaman gəncləri himayə edir, onların təhsili, işi, ümumilikdə həyatının qeydinə qalırdı". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin komitə sədri Tahir Rzayev deyib.

Onun sözlərinə görə, o dövrdə çoxsaylı gənclərin təhsil alması üçün ittifaqın müxtəlif ali məktəblərinə göndərilməsi, Azərbaycan gəncliyinin inkişafı, intellekt səviyyəsinin yüksəldilməsi, yüksək ruhda tərbiyə edilməsi sahəsində Ulu



Öndərin göstərdiyi xidmətlər əvəzsizdir: "Ümummilli lider deyirdi ki, gənclərimiz Azərbaycanın genefondudur. Biz onları hərtərəfli qorumalıyıq. Bu sözlərdə çox böyük hikmət var. Çünki istər Ulu Öndərin hakimiyyətdə olduğu dövrlərdə, istərsə də bu gün Azərbaycan gənclərinin göstərdiyi nailiyyətlər, qazandıqları uğurlar, təhsildə, ictimai həyatda, eləcə də digər sahələrdə fəaliyyəti onu deməyə əsas verir ki, onlar Ulu Öndərin vəsiyyətlərini müvəffəqiyyətlə həyata keçirirlər. Ümummilli lider xatırladırdı ki, hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir. Çünki Azərbaycan xalqı, o cümlədən, gəncliyi dövlətimizin müstəqilliyi uğrunda əsrlərlə mübarizə aparmış, nəhayət, bu istəklərinə nail olmuşdur. Bu müstəqilliyi qorumaq, inkişaf etdirmək Ulu Öndərin ən böyük amalı idi. O, gənclərimizə tövsiyə edirdi ki, əldə olunmuş bu müstəqilliyi qorumaq və onu Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etmək lazımdır".

Deputat sözlərinə davam edərək bildirib ki, Ulu Öndər tədbirlərdə dəfələrlə Azərbaycan gəncliyinə dilini, dinini, tarixini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini sevməyi və yaşatmağı tövsiyə edirdi: "Əlbəttə ki, bu çox böyük bir amal idi. Ümummilli lider Heydər Əliyev bildirirdi ki, dilini sevməyən, dininə qiymət verməyən, tarixini bilməyən bir kəs heç vaxt layiqli vətəndaş ola bilməz. Çünki bu amillər bizim kökümüzdür. Onları yaşamadan, gələcək nəsillərə təbliğ etmədən heç vaxt Azərbaycan dövləti inkişaf edə bilməz. Ulu Öndər gənclərimizə humanist, vətənpərvər, cəsarətli olmağı təlqin edirdi. Bu vətənpərvərliyin kökündə vətənə, xalqa sədaqət durur. Biz bu sədaqətin 44 günlük müharibədə şahidi olduq. Həmin günlərdə heç bir Azərbaycan gənci torpaq uğrunda döyüşlərdən kənarda qalmadı. Gənclərimiz düşmənlə mübarizəyə hazır olduqlarını nümayiş etdirdi. Döyüşlərdə qalib gəlməyi özlərinə həyat amalı hesab etdilər".

"Çoxsaylı faktlar göstərdi ki, Azərbaycan gəncliyi ən böyük qiymətə, hörmət və ehtirama layiqdir. Çünki 30 il düşmən tapdağı altında qalan torpaqlarımız az bir müddətdə cəsarətli gənclərimiz hesabına azad olundu. Ali Baş Komandan İlham Əliyev qürurla səsləndirdi ki, Azərbaycan Ordusunda vuruşan döyüşçülərimiz böyük ehtirama layiqdir. Onlar son 30 ildə yetişmiş gənclərdir. Onların bir çoxu Qarabağ torpaqlarında doğulmasa da, Vətən uğrunda döyüşməyi bacardılar və qalib əsgər olduqlarını bütün dünyaya sübut etdilər. Bu gün Azərbaycan gəncliyi Ulu Öndərin ideyalarını ləyaqətlə həyata keçirir. Azərbaycan gəncliyi vətənpərvər və cəsarətli olduğunu bütün dünyaya nümayiş etdirir",- deyə o əlavə edib.

***Ləman Sərraf***

# Marko Rubio və Kris Smiti Qubad İbadoğlu ilə hansı maraqlar birləşdirir?

***Hazırkı dağıdıcı müxalifət liderlərinin siyasi imici həddən artıq korlanmış durumdadır. Çünki müxalifət düşərgəsində aydın düşüncəli, sağlam fikirli, açıq, demokratik mübarizə aparmaq gücündə və istəyində olan partiya sədrləri yoxdur. Səhvlərindən isə nəticə çıxarmırlar, öyrənməyə, təcrübə qazanmağa cəhd etmirlər. Sadəcə çalışırlar ki, daha çox xarici ağalarının göstərişlərini yerinə yetirsinlər, tələblərini reallığa çevirsinlər. Hələ də anlamırlar ki, məhz səhv, yanlış siyasətlərinin acı nəticəsi olaraq birillik hakimiyyətləri dönəmində Azərbaycan dövləti ağır faciələr yaşadı. Azərbaycan ərazilərini hərraca qoyulması və ermənilər tərəfindən işğal olunmasına şərait yaradılması siyasəti apardılar.***

Hətta öz məkrli planlarının həyata keçirilməsi üçün 20 Yanvar faciəsi və Xocalı soyqırımı kimi qanlı hadisələrdən istifadə edərək, zor gücünə hakimiyyəti zəbt etdilər. İstəklərinə nail olduqdan sonra ölkəni uzun illər düzəldilməsi çətin olan faciələrə sürüklədilər. Bu gün də keçmişin ab-havası ilə yaşayırlar. Ancaq istəkləri əlçatmazdır. Çünki xalq qətiyyətlə onları rədd edir. İctimai münasibətdən nəticə çıxarmaqdansa, hələ də müxtəlif pafoslu açıqlamaları, mesajları ilə gündəmdə qalmağa çalışırlar.

### Əli Kərimlinin söylədiklərini Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Fuad Qəhrəmanlı, Seymur Həzi, Tofiq Yaqublu və digərləri də tutuquşu kimi təkrarlayırlar

Demək olar ki, dağıdıcı müxalifət ən azı KİV-lərin diqqət mərkəzinə çevrilmək üçün hər cür iyrənc vasitə və üsullardan istifadə etməkdən çəkinmir. Bildikləri halda ki, Qubad İbadoğlu cinayət törədib, mütəşəkkil dəstə ilə saxta pul kəsib, onu yaymağa cəhdlər göstərib, yenə də onu müdafiə etməyə, cinayətinə haqq qazandırmağa çalışırlar. Bu isə onu göstərir ki, Əli Kərimli, Tofiq Yaqublu, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və digərləri Q.İbadoğlu üzərindən öz çirkin şər və böhtanlarını yaymağa çalışırlar.

### Qubad İbadoğlu ilə erməni lobbisi arasındakı münasibətlər hansı səviyyədədir ki, onun müdafiəsinə senatorları cəlb edir?

Əli Kərimlinin əndrabadi yanaşmasına münasibət bildirməzdən əvvəl qeyd edim ki, eyni sayıqlamanı "Milli Şura"nın trol dəstəsinin fəallarından hesab olunan Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Fuad Qəhrəmanlı, Seymur Həzi, Tofiq Yaqublu və digərləri də tutuquşu kimi təkrarlayırlar. Diqqətçəkən məqam ondan ibarətdir ki, trol dəstəsinin sayıqlamalarının Azərbaycan cəmiyyətində etinasız qarşılandığını anlayan bəzi ermənipərəst dairələr ara-sıra özləri də dövriyyəyə daxil olub statuslar paylaşırlar. Onların arasında ABŞ senatorları Marko Rubio və Kris Smit də var. Azərbaycan qanunvericiliyinin tələbləri əsasında hüquqi məsuliyyətə cəlb edilmiş Qubad İbadoğlunu senatorlar Marko Rubio və Kris Smit kor-koranə müdafiə edirlər. Onlar üçün maraqlı da deyil, istintaq araşdırması necə gedir, ortaya hansı sübutlar qoyulub. Sadəcə, erməni lobbisinin istəyinə uyğun olaraq Azərbaycana qarşı jantaj siyasəti aparırlar. Chris Van Hollen, Ben Kardin kimi Marko Rubio və Kris Smit də erməni lobbisinin senatorları, yaxud ANCA-nın fəalları olduqları bəllidir. Yəni, bu senatorların hər biri karyeraları boyunca qondarma "erməni soyqırımı", qondarma "Artsax", Türkiyə və Azərbaycan əleyhinə kampaniyalar təşkil ediblər, erməni lobbisinin sifarişlərini yerinə yetiriblər. Qubad İbadoğlu bu senatorların, daha doğrusu, onları danışdıran erməni lobbisinin nəyinə lazımdır? Yaxud Qubad İbadoğlu ilə erməni lobbisi arasındakı münasibətlər hansı səviyyədədir ki, onun



müdafiəsinə senatorlarını cəlb edir?

### Dağıdıcı müxalifət eyni mənbədən - erməni lobbisindən qidalanır

Digər məsələ budur ki, Əli Kərimli, Tofiq Yaqublu, Cəmil Həsənli, Fuad Qəhrəmanlı, Gültəkin Hacıbəyli kimilər də bu ermənipərəst senatorların anti-Azərbaycan tezislərini təkrar və təbliğ edirlər. Görünən odur ki, eyni mənbədən - erməni lobbisindən qidalanırlar. Faktlara nəzər yetirsək məlum olar ki, əslində, bu şəxslərin bir-biri ilə əlaqələrinin tarixi Azərbaycanda keçirilən 2013-cü il prezident seçkiləri ərəfəsinə gedib çıxır. O zaman belə bir məlumat yayılmışdır ki, ABŞ senatorları Marko Rubio və Kris Smit, eləcə də İngiltərədəki qaranlıq dairələrin dəstəyi ilə Azərbaycan QHT-lərinə 25 milyon 345 min dollardan çox vəsait ayırıb. Vəsaitlər daha çox "Soros Fondu" və Oxfam kimi tanınan (Aclıq Çəkənlərə Yardım Komitəsi kimi (ingiliscədə adı belədir: Oxford Committee for Famine Relief) təşkilatı tərəfindən ayrılıb. Maliyyənin bölüşdürülməsini isə Q.İbadoğlu həyata keçirib. Nəticədə, dağıdıcı müxalifət Q.İbadoğlunun əliaçıqlığı nəticəsində 10 il ərzində 25 milyon 345 min dollar qrant qazanıblar ki, həmin vəsaitin də 10 milyon 650 min dolları məhz Q.İbadoğluna çatıb. Eyni zamanda, Q.İbadoğlu MKİ-nin fondu olan NED-in prototipi EED (European Endowment for Democracy), yəni Avropa Demokratiyaya Yardım Fondu tərəfindən ayrılan qrantlara da nəzarət edib. Məhz bu fond Ə.Kərimlinin təbliğat maşını hesab olunan "Meydan" TV-nin və "Azadlıq" qəzetinin saytının maliyyələşməsini həyata keçirib. Araşdırmalar nəticəsində bəlli olmuşdur ki, Avropa Demokratiyaya Yardım Fondu tərəfindən "Meydan" TV-nin və "Azadlıq" qəzetinin saytının hesablarına 475 000 min avro pul köçürülüb. Bu məlumatları "Milli Şura"nın sədri Cəmil Həsənli də etiraf etmişdir. Bildirmişdir ki, o, bir müddət Azərbaycanda "Soros fondu"nun üzvü olub: "Bakıda "Soros Fondu" fəaliyyət göstərəndə mən də bordun üzvü olmuşam. Hər ay 200 dollar əməkhaqqı yazırdılar".

### "Utanmasan oynamağa nə var ki"

ABŞ senatorları Marko Rubio və Kris Smitin, Corc Sorosun dəstəyi ilə ayrılan maliyyə vəsaitlərinin nəticəsidir ki, Qubad İbadoğlu, Cəmil Həsənli, Əli Kərimli və digərləri Azərbaycan dövlətinə və xalqına qarşı düşmən münasibət sərgiləyirlər.

Qısaca onu qeyd etmək olar ki, Q.İbadoğlu boğazdan yuxarı pafoslu fikirlər çox söyləyirdi. Əslində isə, özü araq, çaxır məclislərinin aludəçisi olub. Bu yerdə deyiblər, "utanmasan oynamağa nə var ki". Özü başdan ayağa çirkabın içində, murdar işlərin yanında başqalarını günahlandır. Marko Rubio və Kris Smitin kimi senatorların da Q.İbadoğlunun yanında olmağa çalışmaları isə təbii haldır. Çünki belələri hər zaman haqqın, ədalətin yanında deyil, Azərbaycanın maraqlarına zərbə vurmağa hazır olan trolların yanında olublar.

***İ.ƏLİYEV***

# XİN: "Fransa Prezidentinin təzyiq dili ilə danışması qəbuledilməzdir"

Avqustun 28-də Fransa Prezidenti Emanuel Makronun səfirlər konfransı zamanı səsləndirdiyi bölgə üzrə mövcud vəziyyətə dair yanlış təəssürat formalaşdıran və Ermənistanı birtərəfli qaydada müdafiə edən qərəzli fikirləri sülh prosesinə xələl gətirir. XİN-dən SİA-ya verilən xəbərə görə, Fransa Prezidentinin növbəti dəfə bölgədə humanitar vəziyyət barədə iddiaları əsas götürərək fikirlər səsləndirməsi bu ölkənin siyasətinin yanlış olduğunu bir daha sübut edir.





Azərbaycana qarşı 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən həyata keçirilən işğalçılıq və təcavüz əməllərini qınamayan, işğal nəticəsində 1 milyona yaxın qaçqın və məcburi köçkünün humanitar vəziyyətinə dair heç bir şərh verməyən Fransa tərəfinin indi Azərbaycanın BMT nizamnaməsinə və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq öz torpaqlarının azad edilməsi ilə nəticələnən 2020-ci il 44 günlük Vətən müharibəsini qınaması, eləcə də bölgədə humanitar vəziyyət ilə bağlı iddialara çıxışında xüsusi vurğu etməsi anlaşılan deyil.

Fransa Prezidentinin leksikonunda "Laçın humanitar dəhlizi" kimi ifadələrə yer verməsi, bu istiqamətdə təzyiq dili ilə danışması qəbuledilməzdir və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətsizlikdir.

Laçın yolundan və sərhəd buraxılış məntəqəsindən gün ərzində onlarla erməni sakinin keçdiyi, Azərbaycan tərəfindən erməni sakinlərə yüklərin daşınması üçün "Ağdam-Xankəndi" və digər alternativ yolların ayrıldığı, bütün bu səylərə baxmayaraq, bu yollardan istifadənin Ermənistan və özlərini erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslər tərəfindən siyasiləşdirilməsi Fransa tərəfinə yaxşı məlumdur. Bu istiqamətdə cari ilin avqust ayının əvvəlində əldə olunmuş razılıqların icrasını təşviq etmək əvəzinə erməni tərəfinin təhrikçi addımlarına dəstək verən fikirlərə çıxış zamanı yer verilməsi prosesə birbaşa maneçilik törədən amillərdəndir.

Praqada Avropa İttifaqı missiyasının və 1991-ci il Alma-Ata bəyannaməsi çərçivəsində sərhədlərin tanınması təşəbbüsünün müəllifliyinin Fransa tərəfinin olduğunu bildirən Fransa tərəfinin, nəyə görə Azərbaycan əraziləri işğal altında olan 30 ilə yaxın bir dövrdə bu kimi təşəbbüslərlə çıxış etmədiyi sualına da cavab verməsi daha faydalı olardı. Azərbaycan tərəfi bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında qərarlıdır və bu prosesə maneçilik törədən bütün kənar müdaxilələrin qarşısı qətiyyətlə alınacaq.

# Üç ildə 120 uşaq himayədar ailəyə veriləcək

***Növbəti 3 ildə azı 120 uşağın himayədar ailəyə verilməsi təmin ediləcək. SİA xəbər verir ki, bu barədə Prezident İlham Əliyevin təsdiqlədiyi Azərbaycanda sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün dövlət proqramında qeyd olunub.***

Sənəddə həmin müddət ərzində 220 uşağın stasionar müəssisələrdən ailələrinə qaytarılması və 250 uşağın stasionar müəssisələrə düşməsinin qarşısı alınması yer alıb. Həmçinin azı 120 uşağın himayədar ailəyə verilməsinin təmin olunması nəzərdə tutulub.



# Vicdansızların, ikiüzlülərin, yaltaqların almalı olduqları DƏRS

*Dünyanın gözü qarşısında baş verən qanunsuzluqlara, daha dəqiq desək, ermənilərin terror aktlarına, törətdikləri soyqırımlara, etnik təmizləmə və işğalçılıq siyasətinə vicdansızcasına dəstək vermək, ikiüzlülüklə, yaltaqlıqla bu siyasəti müdafiə etmək yalnız ikrah doğura bilər və sözsüz ki, bunun da bir sonu olmalıdır. Artıq ermənilər özləri belə bu vicdansızlara, yaltaqlara yerlərini göstərməyə başlayıblar, çünki belələrinə, özlərini satanlara hansısa bir ölkədə yer ola bilməz və eynən Viktor Krivopuskovun timsalında onlar gec-tez, nə vaxtsa qovulmağa məhkumdurlar.*




Ermənistanla Rusiya Dostluq və Əməkdaşlıq Cəmiyyətinin rəhbəri Viktor Krivopuskova ötən həftə cümə axşamı İrəvan Zvartnots hava limanında Ermənistan xüsusi xidmət orqanları tərəfindən ölkəyə buraxılmayacağı bildirilib. Bu barədə Krivopuskov özü şəxsən TASS agentliyinin müxbirinə məlumat verib. "Məni ölkəyə buraxmadılar və Ermənistan üçün arzuolunmaz olduğumu bildirdilər, pasportumu da əlimdən aldılar. Mənə rəsmi kağızı da göstərmədilər və dedilər ki, bu gün Moskvaya qayıtmalısız", deyə ermənilərin dostu kimi özünü göstərərək həmişə onlara yaltaqlanan ikiüzlü Krivopuskov məyus halda mızıldanıb TASS agentliyinin müxbirinə məlumat verdiyində.

Belə görünür ki, ermənilər lazımsız fiqurlardan, özü də yaltaq, vicdansız, ikiüzlü fiqurlardan yaxa qurtarmaq fikrindədirlər və belələrinin lazım olmadıqda qovulması istənilən halda labüd hesab olunur. Bəli, haqsızlığı, ədalətsizliyi, qanunsuzluğu, cinayəti lap əvvəlindən bu günə qədər müdafiə edən vicdansız axır ki, birmənalı şəkildə rədd edildi. Əslində, Azərbaycana qarşı qəddar münasibəti ilə seçilən bu vicdansız, ikiüzlü və yaltaq taleyin hökmündən öz dərsini aldı. Tam olmasa da, qismən də olsa dərsini aldı və əmin olsun ki, hələ daha böyük zərbə alacaq, özü də "dost" dediklərindən. Hələlik, o öz "dost" bildikləri tərəfindən qovulmaqla "təltif" edilib, amma tezliklə daha ağır zərbəsini alacağına zərrə qədər şübhə yoxdur. Bu zamana qədər erməni-rus dostluğu adı altında simasızlığını utanmadan göstərən vicdansızın başına gələcəklər də elə simasızcasına gəlməlidir və bu gözləniləndir. Gözlənilən odur ki, ermənilər belə vicdansızın hansı şərəfsiz olduğunu hamıdan yaxşı bilirlər və beləsinə elə simasızlığı dərəcəsində, şərəfsizliyi həddində ediləcək, hansıki Zvartnots aeroportundan ölkəyə buraxılmamağı, geri qaytarılmağı, qovulmağı, rədd edilməyi olacaqlara, onun başına gələcəklərə bir işarədir.

Vicdansız, ikiüzlü, yaltaq birinin başına gələn, onun özünə "dost" hesab etdiyi ölkə aeroportundan it kimi qovulması hər bir halda, hələ də hansısa divident ümidi ilə vicdanını və namusunu sataraq erməni maraqlarına xidmət etməkdə davam edən hər ikiüzlü, hər yaltaq üçün dərs olmalıdır. Dövlət Dumasının deputatı Zatulin, rus təbliğatçısı Simonyan və başqaları kimi artıq Ermənistanın persona-non-qrata siyahısına salınmış bütün cənablar bilməlidirlər ki, satqınları, yalançıları, vicdansızları, ikiüzlüləri, yaltaqları yalnız bu aqibət gözləyir. Bilməlidirlər ki, onlar lazım olduqları zaman alət olaraq sadəcə istifadə edilirlər və lazımsız olduqda amansızcasına çölə, hətta zibil qutusuna atılırlar. TASS agentliyinin müxbirinə mızıldanmasından bəlli olur ki, elə hava limanından geri qaytarılan, daha doğrusu, it kimi qovulan "erməni dostu" da bunu dərhal dərk etməli olub. Məsələ burasındadır ki, bunu elə ermənilərə yaltaqlanan, onların yalanlarının ayaq tutub yeriəsi üçün vicdansızcasına çalışan hər bir ikiüzlü və yaltaq zamanında başa düşsə Viktor Krivopuskovun gününə düşməz, qapıdan it kimi qovulmaz. Vicdanını, şərəfini satmayan, özünə az da olsa hörmət qoyan kəs bunu zamanında nəzərə almalıdır ki, qəflətən özünü zibil qutusunda görməsin.

Ötən əsrin sonlarında imperiyanın Daxili İşlər Nazirliyində sovet zabiti olan Viktor Krivopuskov vicdansızlıqla yüksək gəlir, divident əldə edəcəyi qənaəti ilə erməni sevgisini çox böyük yaltaqlıqla ortaya qoydu. SSRİ Daxili İşlər Nazirliyinin məhz 1990-1991-ci illərdə o zamankı Dağlıq Qarabağ Muxtar Vilayətində İstintaq Əməliyyat Dairəsinin qərargah rəisi vəzifəsində çalışan Krivopuskovun məhz ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərini araşdırmaq əvəzinə, erməni dəyirmanına su tökməsi, yaltaqlıqları yaddan çıxan deyil. SSRİ Daxili İşlər Nazirliyinin hərbi komendantlığının və Daxili Qoşunlarının hərbi qulluqçularının Azərbaycan ərazisində erməni separatizminin kökünün kəsilməsinə yönəlmiş müəyyən əməliyyat tədbirləri barədə Qarabağ separatçılarına məlumat verdiyini Krivopuskov "Üsyankar Qarabağ" kitabında açıq şəkildə qeyd edir və vicdansızlığını da, ikiüzlülüyünü də, yaltaqlığını da etiraf edir. Düşünəndə ki, bütün bunları Azərbaycan xalqına qarşı cinayətlərdə şərik olmuş sovet polis rəisi özü etiraf edir və bunu "kitabında" da yazmağı sımasızlığına sığışdırır, ikrah hissini təsəvvür etmək çətin deyil. Separatçıların liderlərindən olan Sarkisyan və Köçəryanı saunada necə buxar vannası qəbul etdiyini fəxrlə danışan sovet zabiti vəhşiliyi, vandallığı, vicdansızlığı ilə tanınan iki ağaya nökər olmağı özünə dırnaqarası "şərəf" bilirmiş, amma bunun şərəfsizlik olduğunu dırnaqarası "müqəddəs erməni dostluğu" üçün faydalı olmadığı zaman dərk etmək məcburiyyəti ilə üz-üzə qaldı. Nə Sarkisyan, nə də Koçaryan onun bu "fədakarcasına yaltaqlığına" görə nə medal vermədi, nə də heç biri onu hava limanında qarşılamadı. Hazırkı erməni baş nazir Nikol Paşinyan üçün isə Krivopuskov kimiləri işlənmiş əski parçası hesab olunur deyə onun zibil qutusuna atılması ümumiyyətlə, hesaba belə alınan deyil. ABŞ və Fransa ilə əməkdaşlığa maraq göstərən Paşinyan hökuməti üçün artıq Krivopuskov, Zatulin və digər ermənipərəstlər yaltaqdan başqa bir şey deyillər və 44 günlük müharibədən, ələlxüsus da Ermənistanın kapitulyasiyasından sonra onlara ehtiyac, ümumiyyətlə, yoxdur. Dəmir Yumruğun qarşısında yaltaqların, ikiüzlülərin heç nəyə yaramadığı onların hamısı üçün bir dərs olmalıdır.

Erməni vəhşiliklərini, vandallıqlarını görməmək, görməzliyə vurmaq mümkün deyil. Ötən əsrin sonlarında ermənilərin törətdikləri soyqırımları, etnik təmizləmə siyasətini inkar etmək, az qala əsrin üçdə birinə yaxın müddət ərzində torpaqlarımızı işğal altında saxlamalarını, ərazilərimizi talan etmələrini, viran qoymalarını, fauna və floraya ciddi zərbə vurduqlarını, 44 günlük müharibə dönəmində törətdikləri hərbi cinayətləri, müharibə bitdikdən sonra mina terroruna əl atdıqlarını, beynəlxalq hüquq normalarını kobud şəkildə pozduqlarını danmaq mümkünsüzdür. Əgər Krivopuskov, Zatulin və digər ermənipərəstlər bunları danıblarsa, yaxud da danmaqda davam edirlərsə, deməli, bu, vicdansızlıq, ikiüzlülük, yaltaqlıqdır. Belə vicdansızlığa isə zaman öz qiymətini verməlidir və elə məhz Krivopuskovun qovularaq ölkədən rədd edilməsi onlara zamanın "qiymət"dir. Belə bir "qiymət" ermənilərin fransız bacıları, ələlxüsus da Fransa prezidenti Makron üçün də var. Bəlkə Makron və onunla eyni həddə vicdansız olan fransızlar bilmirlər azərbaycanlılara qarşı ermənilərin törətdikləri vəhşiliklər barədə? Yoxsa, Ermənistan tərəfinin haqsız olduğu da, beynəlxalq hüquqa və normalara zidd davranmaları, tələbləri də onlara bəlli deyil? Yaxud, bilmirlərmi ki, ermənilərin törətdikləri və yenə də törətmək istədikləri bütövlükdə insanlığa qarşıdır? Bilirlər, amma hələ də vicdansızlıq edirlər, ikiüzlülük, yaltaqlıq nümayiş etdirirlər. Hətta bunu utanmadan beynəlxalq müstəvidə nümayişkaranə şəkildə edirlər. Məsələ burasındadır ki, Azərbaycana qarşı vicdansızcasına yanaşan, ümumiyyətlə, insanlığa qarşı xəyanətkarcasına yanaşan, ikiüzlülük, yaltaqlıq edənlər Krivopuskovun halını görüb, qovulduğunu, rədd edildiyini müşahidə edib dərs almalıdırlar. Çünki həqiqətən də, həmin onun başına gələnlər vicdansızlar, ikiüzlülər və yaltaqlar üçün bir dərsdir, hansı ki, oxşar aqibət hər birini gözləyir.

***İnam Hacıyev***

# Vətən müharibəsi iştirakçısından Tofiq Yaqubluya: "Bizdən deyilsən?!"

Anar Miriyev: Əgər Yaqublu separatçılarla, döyüş yoldaşlarımın canı bahasına azad etdiyi torpaqlarımızı yenidən işğal etmək planı quran revanşistlərlə eyni mövqeni bölüşürsə, bunun adı Azərbaycan xalqına düşmən olmaqdır



Vətən müharibəsi iştirakçısı, jurnalist Anar Miriyev sosial şəbəkə hesabında Böyük Qayıdış və Laçın şəhəri günü ilə bağlı etdiyi paylaşımda Tofiq Yaqublunu sərt tənqid edib.

Paylaşımı diqqətinizə çatdırırıq: "Avqustun 26-da daha bir qürur yaşadıq. 5 il əvvəl xəyalının qururduq, nisgillə yaşayırdıq. O torpaqlara nə vaxt qayıdacağıq, Laçın, Şuşa həsrətimiz nə zaman bitəcək? Bitdi! Xəyalımız gerçək oldu. Müzəffər Ali Baş Komandanın həyata keçirdiyi siyasət və rəhbərlik etdiyi qalib Ordu yurdumuzu düşmən işğalından azad etdi. Artıq Laçında, doğma yurdumuzda Laçın şəhəri gününü qeyd edirik. Bu, ZƏFƏRİN TƏNTƏNƏSİDİR! Cənab Prezidentin də qeyd etdiyi kimi, bu xoşbəxtliyi bizə bəxş edən bizim müzəffər Silahlı Qüvvələrimizdir. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirik. Onların qanı-canı bahasına, qəhrəman övladlarımızın şücaəti hesabına bu gün biz buradayıq, bu gün biz doğma torpağımızda bayram şənlikləri keçiririk. Bundan böyük xoşbəxtlik ola bilməz! Laçına qayıdışımızı, şəhər günümüzü qeyd etmək haqqımızdır. Biz o torpaqları döyüşərək, şəhid verərək azad etmişik. Mən Vətən müharibəsi iştirakçısı kimi bunun nə demək olduğunu yaxşı bilirəm. Yurd həsrətimizin bitməsi, evinə qayıdan laçınlıların gözlərindəki sevinci görəndə müharibənin ağrı-acısını xoşbəxtlik hissi əvəz edir. Döyüş yoldaşlarımla fəxr edirəm! Amma sosial şəbəkədə oxuyanda ki, Tofiq Yaqublu işğaldan azad edilmiş ərazilərə qayıdışı "nağıl" adlandırır, bu, ürəkbulandırır. İşğaldan azad edilmiş ərazilərimiz, orada aparılan quruculuq işləri, insanların evlərinə qayıdışı siyasətüstüdür. Buna sevinməmək üçün gərək azərbaycanlı olmayasan.

Amma bu da yetmir. Hər bir azərbaycanlı bununla ancaq fəxr edir, qürur duyur. Fəxr etməyən ancaq düşmənlərimizdir. Separatçılar, revanşistlər Laçın şəhəri gününü hədəf seçdilər, bir də Tofiq Yaqublu. Niyə? Əgər Yaqublu separatçılarla, döyüş yoldaşlarımın canı bahasına azad etdiyi torpaqlarımızı yenidən işğal etmək planı quran revanşistlərlə eyni mövqeni bölüşürsə, bunun adı Azərbaycan xalqına, dövlətinə düşmən olmaq, düşmənin təbliğatına dəstək verməkdir. Yaqublu revanşistlərlə birlikdə Azərbaycan dövlətinin əleyhinə sinxron qarayaxma kampaniyası həyata keçirir. Eyni mərkəzdən idarə olunursunuz - başqa qənaət yaranmır. Bu qədər insanın yurd həsrəti bitir, doğma ocaqlarına qayıdırlar, amma Yaqublu bunu "nağıl" adlandırır. Niyə?! Qrant üçünmü? Torpaqlarımızın azad olunmasını, insanlarımızın yurd həsrətinin bitməsini və doğma ocaqlarına qayıtmasını niyə qəbul edə, həzm edə bilmirsən, ay Yaqublu? Bir erməni separatçılar, revanşistlər bunu qəbul edə bilmir, bir də sən! Bizdən deyilsən?!".

# Bakcell abunəçiləri "NaviMax"-la övladlarının təhlükəsizliyinə nəzarət edə biləcək

Bakcell şirkəti "NaviMax" tətbiqi ilə yeni xidmətini istifadəyə verir. "Navimax" əsasən, uşaqların və ailə üzvlərinin fəaliyyətini izləmək üçün nəzərdə tutulan tətbiqdir. Bakcell abunəçiləri bu tətbiq vasitəsilə, övladlarını məktəb, bağça və digər yerlərdə rahatlıqla izləyə, onların təhlükəsizliyinə tam nəzarət edə biləcəklər. Valideynlər övladlarının mobil cihazını öz dost obyektləri siyahısında qeydiyyatdan keçirməklə, onların hərəkət trayektoriyasından xəbərdar olacaqlar.

Valideynlər "NaviMax"la övladlarının hərəkət radiusu üçün koordinatlar təyin edə, icazə verilən hərəkət poliqonundan uzaqlaşma anında mobil bildiriş alma imkanına sahib olacaqlar. Xidmətin aktivləşdirilməsi və deaktivləşdirilməsi tətbiq vasitəsilə həyata keçirilir. Bakcell abunəçiləri 3020 qısa nömrəsinə SMS göndərməklə, tətbiqlə bağlı məlumat və link əldə edə bilərlər. Xidməti deaktiv etmək üçün isə, 3020 qısa nömrəsinə "STOP" yazıb göndərmək kifayətdir. Bakcell abunəçiləri tətbiqdən 1 həftə pulsuz istifadə edə biləcəklər. Pulsuz istifadə dövrü başa çatdıqdan sonra, ödənişli abunəlik avtomatik aktivləşdirilir. Tətbiqə abunəlik haqqı aylıq (30 gün) 1 AZN təşkil edir. Bakcell şirkəti hazırda "Bakcell ilə ən sürətli ol" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir. Xatırladaq ki, şirkət NEQSOL Holding-in tərkibinə daxildir.



## Rusiyalı ekspert: Ermənistanın məsuliyyətsiz davranışının sonu onun zəmanətli hərbi məğlubiyyəti ilə könüllü olaraq hərbi avantüraya sürüklənməsi olacaq

**-Aleksey Valeryeviç, son günlər bir sıra Qərb dövlətlərinin nümayəndələrinin Azərbaycan əleyhinə bəyanatlar dalğasının şahidi olduq. Buna nə səbəb oldu?**

-Qərbin Ermənistanın KTMT-dən çıxması və Rusiya ilə son qopması ssenarisini həyata keçirmək-

**lanmağamı qərar verib?**

- Qismən. Lobbi, əlbəttə ki, işləyir, lakin Qərbin strateji maraqları olmasaydı, heç bir lobbi effektiv olmazdı. Xatırladaq ki, 2020-ci ilin payızında, İkinci Qarabağ Müharibəsi zamanı Ermənistan öz lobbisinə o



**Təşkilat sədrinin digər məsələlərlə yanaşı, Laçın yoluna səfər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



# Aleksey Fenenko: "Moskva öz ərazilərinin qaytarılmasında Bakıya açıq olacaq"

***Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Fenenko "Moskva-Baku" portalına müsahibəsində Qərb ölkələrinin anti-Azərbaycan hücumları barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

də davam etməsi və paralel olaraq İrəvanın NATO ilə daha da sıx əməkdaşlığa doğru getməsi. Təbii ki, heç kim Ermənistanı Şimali Atlantika Alyansına qəbul etməyəcək, lakin İrəvanın Moskvanın təsirindən tam çıxarılması prosesini "yaxşı formada" saxlamaq lazımdır. Bunun üçün Qərb Ermənistan ictimaiyyətini vaxtaşırı Paşinyanın bu cür anti-Azərbaycan bəyanatları ilə həvəsləndirir.

Qarabağ məsələsi ilə bağlı bu cür bəyanatlar və səsləndirilən qeyri-müəyyən tezislər, Qarabağın Bakının nəzarətində olmayan hissəsindəki vəziyyətlə bağlı "erməni soyqırımı" kombinasiyası ilə işləmək, ermənilərin boş Avropaya

qədər ümid edirdi ki, dünyanın hər yerindən ermənilər onun uğrunda döyüşə qaçacaqlar... Amma heç kim ora qaçmadı... Əksinə, Ermənistandan da, döyüş meydanından da qaçdılar... Lobbi lobbi olsa da, anti-Azərbaycan meyillərin arxasında ABŞ və Avropa Birliyi dayanır. Məqsəd Cənubi Qafqazı "partlatmaqdır".

Bu yaxınlarda BMT-nin Laçın yolu ilə bağlı icla-

**etmək üçün rayona göndərdiyi ATƏT nümayəndəsini də Azərbaycan liderinin qəbul etməyəcəyi ilə bağlı məlumatlar var. Rəsmi Bakının reaksiyasını necə şərh edə bilərsiniz?**

- Azərbaycan öz ərazi bütövlüyü və suverenliyindən, o cümlədən Qarabağın suverenliyindən imtina etmək fikrində deyil. Və belə reaksiya göstərir ki, onunla oynamağa dəyməz və Bakı hörmətsizliyi qəbul etmir. Ancaq Qərb ölkələrinin bütün bu açıqlamaları

gəldikdə, strukturun işinin əsas prinsipini pozur- münaqişənin hər iki tərəfindən bərabər məsafədə olmaq əvəzinə tərəflərdən birinin tərəfində durur, onun mandatına və hərəkətlərinə zidd olaraq münaqişəyə dəstək verilir. İkincisi, ATƏT çoxdan nəyisə həll edə bilən təşkilat olmaqdan çıxıb. Bunu Qarabağ münaqişəsinin timsalında göstərdi ki, 30 il ərzində onu həll etmək mandatı olan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk Qrupu buna nail ola bilmədi. Eyni sözləri hələ 90-cı illərin əvvəllərində təşkilatın Təhlükəsizlik Şurasının Ermənistandan qoşunlarını işğal etdiyi Azərbaycan ərazilərindən çıxarmasını tələb edən qətnamələri qəbul edilən BMT haqqında da



gün Ermənistan beynəlxalq platformalardan, aparıcı beynəlxalq strukturlardan istifadə edərək Azərbaycanı ləkələmək, onu Ermənistan-Azərbaycan nizamlanmasına dair razılaşmaları yerinə yetirməməkdə ittiham etmək cəhdlərini davam etdirir, lakin bütün bu cəhdlər sonda boşa çıxır. Ermənistan Şimali Atlantika Alyansının ona qucaq açacağına ümid edir. Amma bu baş verməyəcək. Ermənistana ən yaxın NATO ölkəsi Türkiyədir və İrəvanın onunla münasibətlərini müsbət adlandırmaq olmaz.

İrəvan və ona yardım edənlərin hamısı Qarabağ məsələsini beynəlxalq aləmdə gündəmdə saxlamağa çalışır. Onlar daim bu mövzunu gərginlik amili kimi dəstəkləməyə çalışırlar və eyni zamanda heç bir həll yolu tapmırlar. İkinci Qarabağ müharibəsindən əvvəl olduğu kimi yenə də danışıqlar xatirinə danışıqlar aparmaq Ermənistan üçün faydalıdır.

Bütün bunlar Ermənistanı yeni hərbi avantüraya cəlb edə bilər.





inteqrasiya cəmiyyəti ümidlərini dəstəkləmək üçün Qərbə lazımdır. Qərb deyəsən siqnallar verirbizimlə get, qisas üçün sənə hər şeyi verəcəyik, imkan daxilində Rusiyadan uzaqlaş. Ermənistan isə dinləyib tələyə düşəndən sonra nə olacaq, heç kimi maraqlandırmır. Ermənistan üçün belə oyunların finalı o olacaq ki, o, öz iradəsi ilə hərbi avantüraya sürüklənəcək və zəmanətli hərbi məğlubiyyətə düçar olacaq.

**- Nümayəndələri Azərbaycan əleyhinə bəyanatlara yol verən Belçika və Kanadada Fransa komponentinin güclü olduğu, erməni lobbisinin güclü mövqelərə malik olduğu ölkələrdir. İrəvan bu gün bu amildən yarar-**

sında Avropa İttifaqı tamamilə anti-Azərbaycan mövqe tutdu. Bu, Brüssel platformasında vasitəçiliyin son ifasını təhdid edir. Bu, hər hansı beynəlxalq vasitəçilik kimi, ona görə mövcuddur ki, Azərbaycan hələ də bu danışıqları aparmağa hazırdır. Azərbaycan bunu istəməkdən əl çəksə, bütün sonsuz "beynəlxalq" vasitəçilik prosesi başa çatacaq. Payızda Azərbaycan və Ermənistan liderləri arasında danışıqlar Brüsseldə keçirilməlidir, lakin belə tendensiyalarla baş tutmaya bilər.

**-Belçika Xarici İşlər Nazirliyinin rəhbərinin İrəvandakı bəyanatlarından sonra Azərbaycan prezidenti onu qəbul etməkdən imtina etdi.**

həm də oyundur. Bakıya gələn Belçika Xarici İşlər Nazirliyinin rəhbəri anti-Azərbaycan bəyanatlarından sonra qəfil bəyan etdi ki, Brüssel Azərbaycanla enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək istəyir. Belə təzadlar olduqca axmaq görünür. Əvvəlcə ölkə kobudluq edir, sonra deyir ki, nəyisə necə inkişaf etdirmək istəyir. Amma bu siyasətdir. Biz eyni şeyi Fransadan da gördük, rəsmilər Azərbaycan əleyhinə bəyanatlar verib, sonra deyirlər ki, biz əslində heç nə edə bilmərik, Qarabağdakı separatçılara kömək edə bilmərik, çünki biz ərazi bütövlüyünə hörmət edirik.

Azərbaycan Avropa üçün vacib tərəfdaşdır, ona görə də orada elə fırlanacaqlar ki, Zaqafqaziyada Rusiyanı bezdirsinlər, eyni zamanda, Azərbaycandan bir növ faydalansınlar. Bakı bütün bunları görür və yaxşı bilir. Və hər şeyi yerinə qoyur.

O ki qaldı Azərbaycan prezidentinin ATƏT nümayəndəsini qəbul etməkdən imtina edə biləcəyinə, xatırladığım qədərilə, bu, birinci dəfə deyil. Birincisi, təşkilatın bu cür hərəkətlərindən sonra bu, təəccüblü deyil. ATƏT-in fəaliyyətdə olan sədri isə Azərbaycanla razılaşmadan öz nümayəndəsini Laçın yoluna göndərmək qərarına

demək olar. Bu qətnamələri həyata keçirmək üçün heç kim barmağını qaldırmadı.

**- Bu gün Ermənistanın baş naziri bəyan etdi ki, İrəvan sülh müqaviləsi ilə bağlı növbəti təkliflərini Bakıya təqdim edib. Və yenə də bunun fonunda o, nizamlanma çərçivəsində ermənilərin hüquq və təhlükəsizliyinin təmin olunmasının zəruriliyi barədə bəyanatlar verdi...**

- Bu, Ermənistanın substantiv danışıqlar prosesini dayandırmaq və son nəticədə Ermənistan-Azərbaycan münaqişəsinin həllini uzatmağa nail olmaq üçün davam edən cəhdidir. Ordusunu yenidən silahlandırana qədər vəziyyəti mümkün qədər sərtləşdirmək. Bu

Bunun isə erməni xalqı üçün çox xoşagəlməz nəticələri olacaq.

Təbii ki, İrəvanın Moskvaya və Cənubi Qafqaza münasibəti Rusiyanın xoşuna gəlmir. Ermənistanla NATO-nun bu qədər fəal yaxınlaşması Rusiyanı qane edə bilməz. Qərb bu balansı saxlamadığı halda Rusiya nizamlamada obyektiv vasitəçi olmağa və balansı saxlamağa çalışır. Moskva isə belə balanslı münasibətdən Bakının xeyrinə imtina edə bilər. Çünki Ermənistan həddindən artıq nümayişkaranə şəkildə Qərbə doğru irəliləyir. Bu isə o deməkdir ki, Moskva öz ərazilərinin yekun olaraq onlara qaytarılması məsələsində Azərbaycana daha açıq olacaq.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

# SƏS

29 avqust
2023-cü il

# "Ölkəmizdə gənclər siyasəti uğurla həyata keçirilir"



*"Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapıb. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələyə daxil olub. Ulu öndərin gənclər siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyev gənclərə xüsusi diqqət və qayğı göstərir. Bu gün qətiyyətlə deyə bilərik ki, ölkə gəncləri Prezident İlham Əliyevin uğurla apardığı daxili və xarici kursu dəstəkləyir, bu siyasətin həyata keçirilməsində daima onun yanındadırlar". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib.*

Onun sözlərinə görə, Azərbaycan gəncləri fəaliyyətlərində dövlətin qayğısını hər zaman hiss ediblər: "Onlar öz nailiyyətləri ilə onlara göstərilən etimadı hər zaman layiqincə doğrultmağa çalışıblar. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, Vətən və dövlət qarşısında məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın sürətlə inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfələrini verməyə çalışırlar".

Deputat sözlərinə davam edərək bildirib ki, Ulu öndər 25 iyun 2002-ci il Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətini təbrik edərkən bu sözləri vurğulamışdı: "Gənclərdə, gənc nəsildə vətənpərvərlik hissini, vətənə xidmət etməyi, orduda xidməti şərəf bilmək və Vətən yolunda həlak olmağa, özünü qurban verməyə daim hazır olmaq hisslərini daha da yüksəklərə qaldırmalıyıq." Zaman yetişdi, bu, belə də oldu. İkinci vətən müharibəsi zamanı ön cəbhədə döyüşən Vətən qəhrəmanlarının əksəriyyəti gənclər idi. Bu onu göstərir ki, gənclərimiz öz xalqına, öz vətəninə daim bağlıdır. Gənclərimiz heç nədən qorxmadan ağır döyüşlərdə iştirak etdilər və bu sınaqdan üzüağ çıxaraq cənab prezidentin "Dəmir yumruğ"u ətrafında sıx birləşdilər.

Ümummilli lider Heydər Əliyevin zəngin ictimai-siyasi fəaliyyətində elmə, təhsilə qayğı daim mühüm yer tutmuşdur. Ulu öndər dövlət idarəçiliyinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi diqqətlə yanaşmış, xalqın intellektual gələcəyinin birinci növbədə onun elmi səviyyəsi ilə bağlı olduğunu qeyd etmişdir. Bu gün gənclərimiz təhsil sahəsində də bir çox yeni uğurlara imza atırlar. Bu məsələ hər birimizi qürurlandırır. Hər bir gəncin inkişafı onun təhsili ilə bilavasitə bağlıdır. Təhsilli hər bir gənc özünə daim inamlı və bacarıqlı olur.

Ulu öndər Azərbaycan təhsilinin daha da təkmilləşdirilməsi, keyfiyyətinin yüksəldilməsi məsələsinə böyük önəm verir, pedaqoji kollektivlərlə görüşlərində bu fikirləri dönə–dönə vurğulayırdı: "Bilik səviyyəsinə nail olmaq üçün təhsil daim mövcud olmalıdır və o, ardıcıl surətdə inkişaf etməlidir. Heç şübhəsiz ki, hər bir ölkənin gələcəyi onun gənclərinin inkişafından çox asılıdır. Bütün dövrlərdə gəncliyin mənəvi və fiziki sağlamlığı cəmiyyət üçün önəmli olub".

"Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır."

Əgər bir ölkədə gəncliyə yüksək diqqət və qayğı varsa, deməli, o cəmiyyətdə gənclər proqressiv, intellektual, mənəvi və fiziki baxımından sağlam olacaqlar. Gənclik böyük güc, böyük arzular, böyük ümidlər və sağlam düşüncə deməkdir. Hər bir gənc dövlətin diqqət və qayğısını yüksək qiymətləndirməli, onlar üçün yaradılan fürsət və imkanların dəyərini bilməli, ailə, vətən və cəmiyyəti qarşısında məsuliyyətini tam dərk etməli və dövlətçilik ənənələrinin möhkəmlənməsinə töhfə verməyə çalışmalıdır",- deyə o əlavə edib.

***Ləman Sərraf***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Əmək qabiliyyəti olmayan ata-anaya baxmayanları nə gözləyir?

*"Azərbaycan Respublikasının ailə qanunvericiliyinə əsasən, əmək qabiliyyəti olan yetkinlik yaşına çatmış övladlar maddi yardıma ehtiyacı olan əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa və onlara qayğı göstərməyə borcludurlar". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.*

AÇIQLANDI



Onun sözlərinə görə, uşaqların valideynlərə hörməti, qayğısı burada öz əksini tapıb: "Belə ki, Konstitusiyanın 34-cü maddəsinin 5-ci bəndinə əsasən, valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar. Ailə Məcəlləsində əmək qabiliyyəti olan yetkinlik yaşına çatmış övladların maddi yardıma ehtiyacı olan əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa və onlara qayğı göstərməyə borclu olduqları təsbit olunub.

Əmək qabiliyyəti olmayan və yardıma ehtiyacı olan baba və nənə saxlanmaq üçün yetkinlik yaşına çatan övladlarından və ya ərindən (arvadından) maddi yardım ala bilmədikdə, zəruri vəsaitə malik nəvələrdən məhkəmə qaydasında aliment verilməsini tələb etmək hüququna malikdirlər".

***Ayşən Vəli***

# ŞOK: Bu futbolçu "Barselona"nı "zibil yığını" adlandırdı



PSJ-nin müdafiəçisi Lukas Ernandes məşq zamanı İspaniya "Barselona"sını təhqir edib. Qol.az xəbər verir ki, bu barədə sport.es məlumat yayıb. Məşq zamanı Kilian Mbappe bu yay kluba qoşulan Usman Dembeledən soruşub: "Sən "Barselona"dan gəlmisən, niyə oxumursan?"

Həmin vaxt Hernandes dialoqa müdaxilə edib və deyib: "Zibil yığını olan komanda sənə oxumağı necə öyrədə bilər?"

Xatırladaq ki, 27 yaşlı Ernandes ötən ay PSJ-yə keçib və klubla 2028-ci ilə qədər müqavilə imzalayıb.


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000